DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (340) / NOYABR 2019-CU İL



...Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə İslam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın baş naziri Aşqabad Zirvə Görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləşdirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki həm mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda bunu lağa qoydular ki, bu, nə deyir, nə danışır, bu, nədir? Ondan sonra, görün, nə deyir? Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün gedibdir, görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən, eyni zamanda, bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni, onlardan nə gözləmək olar? Bu sual ritorik sualdır.

...Noyabr ayında Bakıda Dünya dini liderlərinin II Zirvə Görüşü keçirilmişdir, 70 ölkənin dini liderləri Bakıya gəlmişlər. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər, bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölübdür, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, "Stop İslam" deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik, - mən Avropa ölkələrini nəzərdə tuturam, - ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasət yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük. Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin, dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə Görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik.

... Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar.

**Prezident İlham Əliyev**

*Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqindən*
*Bakı, 26.11.2019*

## BAKIDA DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ KEÇİRİLİB



Səh. 2-3

## AZƏRBAYCAN MULTİKULTURALİZMİNƏ HƏSR OLUNMUŞ NÖVBƏTİ KİTAB ÇAPDAN ÇIXIB




Səh. 4

## ƏGƏR DİNİ LİDER TANRI QARŞISINDA MƏSULİYYƏTİNİ ANLAYARSA, HEÇ VAXT ŞƏXSİ MARAQLARINA UYĞUN QƏRARLAR VERMƏZ



Səh. 8-9

## Cəhalətin düşməni qadındır...



Səh. 10

# BAKIDA DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ KEÇİRİLİB



Noyabrın 14-15-də Bakıda Dünya dini liderlərinin II Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamına uyğun olaraq keçirilən Sammit müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlayıb.

Dünyanın 5 qitəsindən 70-dən artıq dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərlərinin qatıldığı Sammitin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva iştirak ediblər.

Prezident İlham Əliyev açılış mərasimində nitq söyləyib. Qonaqları salamlayan dövlət başçısı bu beynəlxalq tədbirin əhəmiyyətinə diqqət çəkib. Bildirib ki, ölkəmizin bu cür mötəbər tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın dinlərarası dialoqun inkişafında oynadığı önəmli rolun göstəricisidir. Azərbaycanın bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərdiyini söyləyən Prezident İlham Əliyev əsrlərboyu ölkəmizdə müxtəlif dinlərin, etnik qrupların nümayəndələrinin bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığını vurğulayıb.

"Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Bizim qədim tariximizi əks etdirən o cümlədən bizim dini abidələrimizdir. Bizim dini abidələrimiz, ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar" – deyən ölkə prezidenti Azərbaycan dövlətinin tarixi-dini abidələrin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmədiyini vurğulayıb və bildirib ki, dövlətin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilib, yaxud yenidən inşa olunub.

Azərbaycan Prezidenti cənab İlham Əliyev iştirakçıların nəzərinə çatdırıb ki, Zirvə görüşünün mövzularından birini də gənc nəslin milli, vətənpərvərlik, eyni zamanda ənənəvi dəyərlər ruhunda tərbiyə alması təşkil edir. Çünki bu gün dünyada ənənəvi dəyərlərə qarşı kampaniyaların aparıldığı, milli təfəkkürə uyğun olmayan yeni "dəyərlər"in aşılandığı bir dövrdə gənc nəslin yad və bəd təsirlərdən qorunmasında həm dövlət, həm də dini liderlər tərəfindən aparılan siyasət çox önəmli və böyük qiymətə layiqdir.

Ölkə başçısı çıxışında Azərbaycanın multikulturalizm siyasətindən də bəhs edib. "Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılmışdır və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır", – deyən cənab Prezident bütün bu tədbirlərin məqsədinin dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə töhfə vermək olduğunu əlavə edib.

Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimləndiyini söyləyən ölkə başçımız bu münasibətlərin əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğunu diqqətə çatdırıb. Bildirib ki, Heydər Əliyev həm sovet, həm də müstəqillik dövründə xalqa ləyaqətlə xidmət etmişdir. Müasir Azərbaycanın bütün istiqamətlər üzrə inkişaf konsepsiyası onun adı ilə bağlıdır. 1992-ci ildə Azərbaycanın düçar olduğu dərin böhran, xaos, anarxiya, özbaşınalıq dinlərarası, millətlərarası münasibətlərə də böyük ziyan vurmuşdu. Xalqın dəvəti ilə Heydər Əliyev hakimiyyətə gələndən sonra ölkədə sabitlik bərqərar olmuş, inkişaf yoluna qədəm qoyulmuşdur.

Şeyx həzrətlərinin də dövlət-din münasibətlərinin formalaşması istiqamətində böyük fədakarlıq göstərdiyini qeyd edən cənab Prezident onun fəaliyyətini yüksək qiymətləndirib: "Mən bu işlərin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyevin və şeyx həzrətlərinin dostluğu dövlət-din münasibətlərinin formalaşmasında həlledici rol oynamışdır. Şeyx həzrətləri bu gün də dövlət-din münasibətlərinin sağlam zəmində davam etdirilməsi istiqamətində böyük işlər görür, Azərbaycanı dünyada təbliğ edir. Onun rəhbərliyi ilə aparılan işlər həm Azərbaycan xalqı tərəfindən, həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər il bir neçə ölkədə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi ilə mötəbər beynəlxalq tədbirlər keçirilir. Həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuz qazanmış şeyx həzrətləri din-dövlət münasibətlərinin necə tənzimlənməsi istiqamətində atılan addımları ölçüb-biçir və bu addımlar ölkəmizin ümumi inkişafını dəstəkləyir. Çünki hər bir ölkənin sabitliyi hər bir ölkənin gələcəyi deməkdir. Sabitlik pozulan yerlərdə inkişafa da yer qalmır. Əfsuslar olsun ki, son illər ərzində dini zəmində müxtəlif ölkələrdə iğtişaşlar, müharibələr, münaqişələr baş alıb gedir. Əfsuslar olsun ki, bir çox hallarda dini şüarlar altında böyük cinayətlər törədilir".

Prezident İlham Əliyev çıxışında uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunub. Bildirib ki, Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır. Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamış və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bütün tarixi abidələr, qəbirlər, o cümlədən məscidlər ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan bu qətnamələrə məhəl qoymur. Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşdüyünü diqqətə çatdıran ölkə başçısı münaqişənin həlli üçün yeganə yolun Azərbaycanın ərazi bütövlüyünün bərpası olduğunu vurğulayıb.

"Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır", - deyə Azərbaycan Prezidenti İlham Əliyev nitqini yekunlaşdırıb və Zirvə görüşünün iştirakçılarına uğurlar arzulayıb.

* * *

Sonra Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Sərəncamı oxunub. Dövlətimizin başçısı İlham Əliyev "Heydər Əliyev" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə qonaqları salamlayaraq Bakı Zirvə görüşünün ərsəyə gəlməsinə dəstək olduğuna görə cənab Prezidentə hamının adından minnətdarlığını bildirib. Vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan müasir Azərbaycanda Zati-aliləri Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək dövlətçilik təfəkkürü ilə milli-mənəvi dəyərlərə verdiyi önəm sayəsində bəşəri birliyə xidmət edən multikulturalizm, İslam həmrəyliyi kimi ideyaların reallaşması istiqamətində uğurlu addımlar atılır və bu addımlar beynəlxalq aləmdə böyük siyasi-mənəvi rezonans yaradır.

Fəaliyyətini yüksək qiymətləndirərək onu "Heydər Əliyev" ordeni ilə təltif etdiyinə görə Şeyx həzrətləri ölkə başçısına dərin təşəkkürünü bildirib. Dünya dini liderlərinin II Bakı Sammitinin qloballaşan dünyanın müasir çağırışlarının, aktual problemlərinin həllinə, beynəlxalq müstəvidə qarşılıqlı anlaşma mühitinin möhkəmlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu qeyd edib.

* * *

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill çıxış edərək deyib ki, dinlərin obyektiv fərqinə baxmayaraq, onlar ictimai tərbiyə məsələlərinə eyni cür baxırlar. Dini liderlərin ümumi borcu və birgə vəzifəsi insanın həyatında mənəvi istiqamətləri göstərməkdir. Dini liderlər siyasi liderlərə yekdilliklə müraciət edə bilərlər və etməlidirlər. Dini liderlərin dialoq yolu ilə bu gün bəşəriyyətin rastlaşdığı problemlərə ciddi təsir göstərə biləcəyinə əmin olduğunu vurğulayan Patriarx Kirill bunun üçün birlik və həmrəyliyin əhəmiyyətinə diqqət çəkib.

Daha sonra Patriarx Kirill Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Müqəddəs Serafim Sarovski" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Ardınca Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanov Prezident Vladimir Putinin, Türkiyə Diyanət İşləri başqanı Ali Erbaş Prezident Rəcəb Tayyib Ərdoğanın, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze Prezident Salome Zurabişvilinin, Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi, Çeçenistan rəhbərinin müşaviri Salah Mezhiyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun və Bütün Gürcüstanın katolikos-patriarxı II İlyanın vikarisi mitropolit Teodor Patriarxın Dünya dini liderlərinin II Bakı Sammitinə ünvanladığı məktubları oxuyublar.

Tədbirdə, həmçinin İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın, Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifinin, Özbəkistan Respublikası Prezidentinin dövlət müşaviri Rüstəm Kasimovun, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynın, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarın, Qüds-Yerusəlimin ortodoks baş ravini Şlomo Amarın, BMT Baş katibinin humanitar məsələlər üzrə xüsusi məsləhətçisi Abdallah əl-Mətuqun, Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid

davamı səh. 3

# BAKIDA DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ KEÇİRİLİB




əvvəli səh. 2

Temrezovun, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri əl-Sayed əl-Haşiminin, Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri Xaled Akaşenin, "RABİTA" Müsəlman Dünyası Liqası Baş katibinin müavini Əbdüləziz Əhməd Sarhanın və "Yaşamaq sənəti" beynəlxalq təşkilatının təsisçisinin xüsusi nümayəndəsi Svami Divyateçin çıxışları dinlənilib.

Natiqlər öz çıxışlarında qeyd ediblər ki, Azərbaycanda konstruktiv sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmlənməsinə kömək edən beynəlxalq tədbirlərin keçirilməsi gözəl ənənəyə çevrilib. Hazırda dünya ictimaiyyətinin ziddiyyətlərin, həmçinin dini şüarlar altında ekstremizm və terrorizmin kəskinləşməsi problemlərindən narahatlıq keçirdiyi bir şəraitdə bu, çox vacibdir. Çünki bu cür tədbirlər dialoqun dərinləşməsinə, millətlərarası anlaşmanın və dini tolerantlığın möhkəmlənməsi sahəsində sıx əməkdaşlığın inkişafına, müasir çağırışlara və təhlükələrə qarşı fəaliyyətə şərait yaradır. Terrorizmin bütün təzahürlərinin pislənərək, gənclərə din haqqında məlumatların daha dolğun çatdırılmasının əhəmiyyətinin vurğulandığı çıxışlarda mədəni müxtəlifliyin qorunub saxlanılmasının vacibliyinə toxunulub. Qonaqlar Sammitin məhz Azərbaycanda keçirilməsini yüksək qiymətləndirərək burada iştirakdan qürur hissi keçirdiklərini dilə gətiriblər. Çünki Azərbaycan dini liderlər arasında körpü yaratmaq, dialoq yollarını gücləndirmək, müştərək insani dəyərləri dərinləşdirmək, multikulturalizm və dini dəyərlər vasitəsilə gənclərin düşüncəsini inkişaf etdirmək, həmçinin ksenofobiya, ifratçılıq və ekstremizmin bütün formaları ilə mübarizə aparmaq üçün dünyanın müxtəlif dövlətlərindən dini rəhbərləri bir araya toplamaq işində nümunəvi təcrübəyə malik bir ölkədir.

* * *

Qeyd edək ki, Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə ev sahibliyi etdiyi Dünya dini liderlərinin II Bakı Sammiti Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamıdır.

İkigünlük Sammitdə "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" mövzuları ətrafında müzakirələr aparılıb və Sammitin yekunlarına dair Bakı Bəyannaməsi qəbul olunub.

## DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiyasının Federasiya Şurasının Regional məsələlər üzrə komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsaidovu və Dağıstan Xalq Məclisi sədrinin müşaviri Məhəmməd Qurbanovu qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 14-də Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul edib.

# AZƏRBAYCAN MULTİKULTURALİZMİNƏ HƏSR OLUNMUŞ NÖVBƏTİ KİTAB ÇAPDAN ÇIXIB






Noyabrın 25-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) birgə maliyyə dəstəyi ilə nəşr olunan "Azərbaycan multikulturalizmi. Etnik müxtəliflik xəzinəsi" kitabının təqdimat mərasimi keçirilib. BBMM-in icraçı direktoru Rəvan Həsənov tədbiri açaraq Azərbaycanın multikulturalizm ənənələrindən danışıb və nəşrin əhəmiyyətini qeyd edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, multikulturalizm Azərbaycanın dövlət siyasətinin bir hissəsi olmaqla bərabər, həm də xalqımızın həyat tərzinə çevrilib. Şöbə müdiri vurğulayıb: "Ulu öndər Heydər Əliyev deyirdi ki, Azərbaycan müxtəlif millətlərin, xalqların dinc və yanaşı yaşadığı ölkədir. Bir çox fərqli mədəniyyətlərin birgəyaşayış tərzini özündə əks etdirən multikulturalizm cəmiyyətdəki etnik müxtəlifliyin tənzimləməsinin ən uğurlu modelidir. Mədəni müxtəlifliyin qorunması ilə əlaqədar UNESKO-nun 2001-ci il noyabrın 2-də qəbul etdiyi Bəyannamədə belə bir fikir yürüdülür ki, mədəni müxtəliflik məhz yaradıcılığın, inkişafın mənbəyidir".

"Elə dövlətlər var ki, onlar dini və mədəni müxtəlifliyin əleyhinə çıxır, ölkələrində başqa millətlərin yaşamasını istəmirlər. Belə ölkələrdən biri də mənfur qonşumuz Ermənistandır. Hələ ötən əsrin 30-cu illərində burada Qaregin Njde adlı qatı millətçi fəaliyyət göstərirdi və o, Böyük Vətən müharibəsi illərində faşist Almaniyası ilə ittifaqa girmişdi. Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən iclasındakı çıxışında belə bir insana abidə qoyulmasını kəskin surətdə pislədi", - deyə E.Nəcəfov əlavə edib.

Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı kitabın əhəmiyyətinə toxunaraq deyib: "Düşünürəm ki, bu kitab təcavüzkar və işğalçı Ermənistana qarşı informasiya müharibəsində ən yaxşı silahlardan biri olacaq. Biz bu istiqamətdə bütün imkanlardan istifadə etməliyik. Dünyada 8 milyard insan var, lakin 50 milyonluq yalnız 25 xalq mövcuddur ki, onlardan da biri Azərbaycan xalqıdır". Dövlət Komitəsinin sədri vurğulayıb ki, Dünya dini liderlərinin II Bakı Sammitinin Bakıda keçirilməsi ölkəmizin tolerantlıq məkanı olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin Sammitdə çıxışı dini liderlər tərəfindən maraqla qarşılandı və onlar ölkəmizdə tolerantlığın, multikulturalizmin hökm sürdüyünün əyani şahidi oldular. Mənəvi və dini dəyərlərin təbliği və qorunmasının daim diqqət mərkəzində olduğunu deyən M.Qurbanlı kitabın elektron versiyasının yayılmasının önəmini diqqətə çatdırıb.

Mənəvi Dəyərlərin Təbliği Fondunun İcraçı direktoru Mehman İsmayılov nəşrin əhəmiyyətindən danışaraq ingilis dilində çap edilən kitabın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün yaxşı vasitə olduğunu vurğulayıb.

Sonra çıxış edənlər – Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, professor Maisə Rəhimova, Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, ölkəmizdəki kürd icmasının ağsaqqalı Əhməde Həpo, Alban-Udi Xristian İcmasının rəhbəri Robert Mobili, Mifodi Ata və başqaları Azərbaycanda mövcud olan multikultural ənənələrdən, müxtəlif dinlərin nümayəndələrinə göstərilən diqqət və qayğıdan danışıblar.

Qeyd edək ki, ingilis dilində nəşr edilən kitabda Azərbaycanda yaşayan etnik xalqların mədəniyyətindən bəhs olunur. Kitabın müəllifləri Dövlət İqtisad Universitetindəki Multikulturalizm Mərkəzinin rəhbəri, professor Məhəbbət Paşayeva və BBMM-in Analitika şöbəsinin məsləhətçisi Araz Qurbanovdur.

# MÜBARİZ QURBANLI «FRANCE 2» TELEKANALINA MÜSAHİBƏ VERİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı noyabrın 12-də Heydər Əliyev Fondunun dəvəti ilə ölkəmizdə səfərdə olan "France 2" telekanalının "İslam Azərbaycanda" verilişinin çəkiliş qrupunun üzvlərinə müsahibə verib.

DQİDK sədri müsahibəsində Komitənin fəaliyyət istiqamətlərinə toxunub, dövlət-din münasibətləri, dini durum haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunub. M.Qurbanlı, eyni zamanda Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında danışıb. Bildirib ki, Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qovuşduğu məkan olub. Tarixin ayrı-ayrı dönəmlərində ölkəmizdə Bütpərəstlik, Zərdüştiliklə bərabər, Yəhudilik, Xristianlıq və İslam kimi səmavi dinlərin nümayəndələri birgə yanaşı yaşayıblar. Eyni zamanda, Azərbaycan ərazisi bütün dövrlərdə dini ayrı-seçkilikdən əziyyət çəkən insanlar üçün sığınacaq rolunu oynayıb.

M.Qurbanlı vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən də diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

"France 2" telekanalının çəkiliş qrupunun üzvü Boualem Guerıtlı müsahibəyə görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirərək ölkəmizə səfərlərinin məqsədindən danışıb.

Boualem Guerıtlı "İslam Azərbaycanda" verilişinin çəkilməsində məqsədin Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətlərini, birgəyaşayış, multikulturalizm və tolerantlıq ənənələrini dünyaya nümayiş etdirmək olduğunu vurğulayıb.

Sonda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında hazırladığı kitablar təqdim edilib.

# MÜBARİZ QURBANLI: DÜNYA DİNİ LİDERLƏRİNİN II BAKI SAMMİTİ BİRGƏYAŞAYIN VƏ MULTİKULTURAL MODELİN PARLAQ NÜMAYİŞİ ÜÇÜN NÖVBƏTİ İMKAN OLDU

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yap.org.az saytına müsahibə verib:*

**- Mübariz müəllim, Azərbaycan son illər dinlər və sivilizasiyalararası dialoqun inkişafına yönəlik bir çox nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu barədə fikirlərinizi bilmək istərdik.**

- Qeyd edim ki, mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Son illər respublikamız Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və iştirakı ilə çoxlu sayda sivilizasiyalararası dialoqla əlaqədar beynəlxalq tədbirlərin keçirildiyi unikal məkana çevrilib. Azərbaycan son on ildə bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlar düzənləyib, beynəlxalq qurumların toplantılarına ev sahibliyi edib. Prezident İlham Əliyevin çıxışında qeyd etdiyi kimi belə mötəbər tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın qədim dinlərarası ənənələrindən irəli gəlir: "Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır..."

Beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Bu hər şeydən əvvəl, Prezident İlham Əliyevin apardığı müdrik siyasət nəticəsində Azərbaycanın beynəlxalq imicinin artması ilə bağlıdır. Bu məsələdə dünyada cərəyan edən hadisələr fonunda ölkəmizdə hökm sürən sabitlik də mühüm rol oynayır. Fəxrlə deyə bilərik ki, bu gün beynəlxalq aləmdə Bakı şəhəri ilə bağlı iki ifadə tez-tez işlədilir: mədəniyyətlərarası dialoq üzrə Bakı prosesi və tolerantlığın təşviqi üzrə Bakı prosesi. Bakıda toplaşıb bəşəriyyətin qarşısında duran bu və ya digər problemlə bağlı fikir mübadiləsi aparmaq imkanı qazandıran beynəlxalq tədbirlərlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitəçilik edirlər.

**- Bu tədbirlərin davamı olaraq ötən həftə ölkəmizdə keçirilən 70-dən çox ölkənin görkəmli din xadimlərinin, nüfuzlu beynəlxalq təşkilatların, nümayəndə heyətlərinin qatıldığı "Dünya dini liderlərinin II Bakı sammiti"nin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlər ölkəmizin və xalqımızın dünyada olduğu kimi tanıdılmasında mühüm amillərdən birinə çevrilib. Dünya dini liderlərinin I Bakı Sammiti, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamı olan bu sammit də bir sıra məsələlər baxımından diqqət çəkməkdədir.

Dünya Dini Liderlərinin 2010-cu ilin aprelində keçirilmiş birinci Bakı Sammiti tolerantlıq prinsiplərini prioritet elan etmiş ölkəmizin bu istiqamətdə siyasətinin nümayişi üçün bir platformaya çevrilib. Dünya Dini Liderlərinin II Bakı Sammiti bir daha birgəyaşayın və multikultural modelin parlaq nümayişi üçün növbəti imkan oldu. Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən Dünya dini liderlərinin II Sammitində dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak edirdilər.

Regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışları nüfuzlu din və ictimai xadimlərin iştirakı ilə birgə "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" mövzuları ətrafında müzakirələr aparıldı. Eyni zamanda, bu tarixi fürsətdən istifadə edilərək, Azərbaycan həqiqətləri dünyaya daha yaxından nümayiş etdirildi.

**- Sammit hansı çağırışlarla yadda qaldı?**

- Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə ev sahibliyi etdiyi ikigünlük Sammitdə müxtəlif mövzular ətrafında önəmli müzakirələrdən sonra yekunda Bakı Bəyannaməsi qəbul olundu.

Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair Bakı Bəyannaməsində Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyi xüsusi vurğulandı. Dünyanın nüfuzlu dini və ictimai xadimləri, dövlət rəsmiləri "Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və dini abidələrin dağıdılmasından öz dərin narahatlıqlarını ifadə edərək" dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına dəstək verməyə səslədilər.

Bakı sammitində yadda qalan məqamlardan biri də Birləşmiş Millətlər Təşkilatının, digər beynəlxalq, regional və ictimai təşkilatların, dini liderlərin terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanmasına, ksenofobiya, islamofobiya, antisemitizm, xristianofobiya zəminində törədilən terror aktları və digər - xüsusilə ağır cinayətlərin qarşısının alınması üçün təsirli tədbirlər görməyə çağırılmasıdır.

Sammitin yekununda Azərbaycan xalqının zəngin multikulturalizm təcrübəsi, nümunəvi tolerant keyfiyyətlərə sahib olması beynəlxalq səviyyədə bir daha yüksək qiymətləndirilirildi.

Təsadüfi deyildir ki, II Bakı Sammiti çərçivəsində keçirilən II Plenar iclasda çıxışı zamanı Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri Xaled Akaşe digər dövlətləri Azərbaycandakı bu modeli əxz edərək özlərində tətbiq etməyə çağırdı. Vatikanın nümayəndəsi ölkəmizin tolerantlıq modelini "çox faydalı metod" adlandırdı. Moskva və bütün Rusiyanın patriarxı Kirill isə Bakının qlobal səviyyəli dinlərarası dialoq üçün mühüm məkana çevrildiyini vurğuladı.

Dövlət başçısı sammitdəki çıxışında qeyd etdiyi kimi, Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq: "Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır".

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq, noyabrın 26-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Zərdab, Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Göyçay, sədr müavini Gündüz İsmayılov isə Ucar rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Əvvəlcə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə və DQİDK sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə Komitənin bölgə şöbəsinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Dünya dini liderlərinin II Bakı sammitində iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan bir sıra qonaqlarla görüşlər keçirib. Belə ki, Komitə sədri:**

**12 noyabr** - ABŞ-ın nümayəndə heyətinin üzvlərini, həmçinin BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzaini;

**13 noyabr** - Yeşiva Universiteti Yakob Sefard Tədqiqatlar İnstitutunun direktoru Eliy Abadi, Türkiyə və Almaniyanın baş ravvinləri İshaq Haleva və Hain Yidşaq Etherberq, Macarıstan Yəhudiləri Assosiasiyası prezidentinin şəxsi nümayəndəsi Akos Naqi və İsraildən olan jurnalist Elyana Rose Rudedən ibarət nümayəndə heyətini, həmçinin Özbəkistan Prezidentinin müşaviri Rüstəm Kasımovun başçılıq etdiyi nümayəndə heyətini;

**15 noyabr** - Fələstin dövlətinin Ali hakimi və Fələstin Prezidentinin Dini işlər və İslam münasibətləri üzrə müşaviri Mahmud Sudqi əl-Həbbəşi qəbul edib.

Görüşlərdə ölkəmizdəki dövlət-din münasibətləri barədə məlumat verilib. Eyni zamanda, Azərbaycan həqiqətləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və işğal olunmuş ərazilərimizdə dini abidələrimizin vandalizmə məruz qalması haqqında danışılıb. Bildirilib ki, Azərbaycan bir dövlət olaraq multikulturalizm kimi humanist dəyərlərini dünyada təbliğ və öz nümunəsində layiqincə tətbiq edir.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirə olunduğu görüşlərin sonunda qonaqlara DQİDK tərəfindən hazırlanan və ölkəmizdəki dini tolerantlıq mühitindən, maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən danışan kitablar təqdim olunub.

# «AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK»

## Göyçayda

Noyabrın 7-8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Göyçay Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.



Din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə Göyçay RİH başçısı Aparatının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Vüsal Zöhrabov açıb. Göyçaydakı dini durum barədə məlumat verən V.Zöhrabov gənclərin yad dini ideologiyaların təsirindən qorunmasında bu cür maarifləndirmə tədbirlərinin mühüm rol oynadığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Şərqlə Qərb arasında həmrəylik körpüsü funksiyasını yerinə yetirən Azərbaycan bununla həm universal dəyərlərə bağlılığını, həm də tarixi keçmişində xüsusi yer tutub və bu gün də qoruyub saxladığı İslam dininin ali dəyərlərinə sadiq qaldığını sübut edir. O vurğulayıb ki, birlik və vəhdət dövlətlərin varlığını qoruyub saxlayan əsas amildir. Bu dəyərlərdən məhrum ölkələrdə əmin-amanlıq olmadığı kimi, onların gələcəyi də sual altındadır. Buna görə də təfriqəyə yol açan və milli-dini birliyə yönəlmiş mənfi fikir və ideyaların yayılmasının qarşısı alınmalıdır.

İslam dünyasında vəhdət, birlik və həmrəylik prinsiplərinə nail olmaq üçün, ilk növbədə, din xadimlərinin güclü səylə çalışmalı olduqlarını diqqətə çatdıran Səyyad Salahlı onları bu işdə aktiv olmağa, İslam cəmiyyətinin vəhdət prinsiplərinin formalaşması və inkişafı yolunda əhəmiyyətli addımlar atmağa səsləyib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Tural Vəlizadə isə çıxışında radikalizm və ekstremizmin yayılmasından, bunun qarşısının alınmasında dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb.

## Şəkidə

Analoji tədbir noyabrın 21-22-də DQİDK və Şəki ŞİH-in birgə təşkilatçılığı ilə baş tutub. Din xadimləri, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə Şəki ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov açıb. S.Yusifov vurğulayıb ki, dünyada din amilindən siyasi vasitə kimi istifadə olunur. Buna görə də insanlara, xüsusilə gənclərə dinlə bağlı əsl həqiqətləri çatdırmaq üçün bütün imkanlar səfərbər edilməli, qabaqlayıcı tədbirlər görülməli, geniş maarifləndirmə işi aparılmalıdır.

Daha sonra DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək müstəqil respublikamızın qazandığı uğurların Ulu Öndərimiz Heydər Əliyevin fəaliyyəti ilə birbaşa bağlı olduğunu bildirib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin bu uzaqgörən siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin




rəhbərlik etdiyi ölkəmizdə tolerant, multikultural mühit hökm sürür. Bu baxımdan Azərbaycan dünyaya örnəkdir.

"Vətənini, millətini sevən hər bir vətəndaş, o cümlədən dindarlar onun qanunlarına da hörmətlə yanaşmalı, qanundan irəli gələn prinsiplərə riayət etməlidir", - deyən sədrin birinci müavini vurğulayıb ki, dini etiqad hüquq pozuntusuna bəraət qazandırmır.

Dini radikalizmə mübarizə, dini maarifləndirmə tədbirlərindən də danışan Səyyad Salahlı din xadimlərini radikalizm və ekstremizmlə mübarizədə, həmçinin ictimai həyatda fəallıq nümayiş etdirməyə çağırıb.

Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Orxan Maşayev və başqaları çıxış edərək bildiriblər ki, mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması aktual məsələlərdəndir. Bu dəyərlərin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Seminar-müşavirələrdə Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Üfüqdəki gələcək" filmi nümayiş olunub, həmçinin tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# ÇEX RESPUBLİKASINDA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ, RADİKALİZM VƏ ZORAKILIĞIN QARŞISININ ALINMASI MÖVZUSU MÜZAKİRƏ OLUNUB




Noyabrın 7-də Çex Respublikasında İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin səfirlərini birləşdirən Praqa Qrupu və Çex Respublikası Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə "Mədəniyyətlərarası dialoq, radikalizm və zorakılığın qarşısının alınması" mövzusunda beynəlxalq konfrans keçirilib.

Ölkəmizi bu konfransda təmsil edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov çıxışında Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətləri, tolerant və multikultural mühit, dini əməkdaşlığın önəmi, o cümlədən dinin siyasiləşməsi, radikalizm və ekstremizm ideologiyası ilə mübarizə kimi bir sıra məqamlara toxunub. Bildirib ki, dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda din amili, dini təhlükəsizlik problemləri daha da aktuallaşır.

S.Heydərov çıxışında tarixi Azərbaycan torpaqlarının 20 faizindən çoxunun monokultural siyasət yürüdən Ermənistan tərəfindən işğal olunması, bir milyondan artıq azərbaycanlının öz torpaqlarından qovulması, minlərlə soydaşımızın terrora məruz qalması, işğal altında olan Dağlıq Qarabağ ərazisində çoxsaylı dini, mədəni və tarixi abidələrimizin Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılması məsələlərini də dilə gətirib.

# "MÜASİR TOLERANTLIQ - AZƏRBAYCAN NÜMUNƏSİ"

**18 noyabr** – Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Tovuzda;

**22 noyabr** – DQİDK və Azərbaycan Texniki Universitetinin birgə təşkilatçılığı ilə Bakıda "Müasir tolerantlıq-Azərbaycan nümunəsi" mövzusunda konfrans keçirilib.

Tədbirlərdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Tovuz RİH başçısı Məmməd Məmmədov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Nəriman İbayevin məruzələri dinlənilib.

Çıxışlarda diqqətə çatdırılıb ki, dünyada cərəyan edən ictimai-siyasi proseslərə nəzər saldıqda görürük ki, bu gərginliyin əsasını dini və etnik zəmində baş verən münaqişələr təşkil edir. Belə mühitdə tolerantlığın, multikulturalizmin, birgəyaşayışın əhəmiyyəti olduqca vacibdir. Bildirilib ki, Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilən multikulturalizm və tolerantlıq siyasəti dünya birliyi tərəfindən də yüksək dəyərləndirilir.

Tədbirlərdə ölkəmizə xas olan tolerantlıq təcrübəsi, bu sahədə görülən işlər və qarşıda duran vəzifələr barədə müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# AĞDAM RAYONUNDA "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ OLUB



Noyabrın 27-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ağdam Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda konfrans keçirilib.

Quzanlı qəsəbəsindəki Heydər Əliyev Mərkəzində keçirilən konfransda DQİDK-nın sədr müavini Səyavuş Heydərov, RİH başçısı Vaqif Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin səlahiyyətli nümayəndələri, həmçinin ziyalılar, din xadimləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsinə dərin ehtiramlarını bildiriblər. DQİDK-nın tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi əsasında çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" adlı sənədli film nümayiş olunduqdan sonda çıxış edən Ağdam RİH başçısı Vaqif Həsənov bildirib ki, əsası Ulu Öndər tərəfindən qoyulan dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, "Din və ideoloji təhlükəsizlik" mövzusunda keçirilən seminar-müşavirə maarifləndirici xarakterli olmaqla, respublikamızın bütün bölgələrində təşkil edilir. Seminar-müşavirənin keçirilməsində məqsəd vətəndaşları dünyada, regionda, ölkəmizdə dini mühitdə cərəyan edən proseslər, tendensiyalar, təhdidlər barədə məlumatlandırmaqdır.

DİN-in nümayəndəsi Oktay Tağıyev, Baş Prokurorluğun əməkdaşı Bəhruz Kərimov, QMİ-nin Ağdam rayonu üzrə qazisi Barat Bağırov çıxışlarında milli təhlükəsizliyə əsas təhdidlər, dini radikalizmə qarşı mübarizənin hüquqi əsasları, bu istiqamətdə aparılan maarifləndirmə tədbirlərinin önəmindən danışıblar.

# BAKIDA "TOLERANTLIQ ÖRNƏYİ – AZƏRBAYCAN" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Noyabrın 13-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Səbail Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Tolerantlıq örnəyi – Azərbaycan" mövzusunda konfrans keçirilib.

DQİDK və RİH nümayəndələri, rayonun din xadimləri və gənclərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Səbail RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Şahin Talıbov rayondakı dini durum barədə ətraflı məlumat verib və tədbirin əhəmiyyətindən danışıb.

Daha sonra təqdimatla çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, hər il ölkəmizdə 16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə müxtəlif tədbirlər keçirilir.

Azərbaycan əhalisinin 96 faizinin müsəlmanların təşkil etdiyini deyən Gündüz İsmayılov vurğulayıb ki, respublikamızda bütün dinlərin nümayəndələri sülh və qardaşlıq şəraitində yaşayırlar. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunə təşkil edir.

DQİDK-nın sədr müavini onu da deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini konfessiyalar üçün eyni şərait və bərabər münasibət yaradılıb. "Respublikamızda mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə dövlət başçımızın müvafiq sərəncamları ilə mütəmadi olaraq Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalara maliyyə yardımı göstərilir",- deyə G.İsmayılov əlavə edib.



# GÜNDÜZ İSMAYILOV: "AZƏRBAYCAN XALQI HƏR ZAMAN TOLERANTLIĞI İLƏ SEÇİLİB"



Noyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Nərimanov Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətləri: tarix, hüquq və ənənə" mövzusunda tədbir keçirilib. Nərimanov rayonunun təhsil işçiləri və gənclərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Vəfadar Zeynalov rayondakı dini durumun sabit olduğunu deyib. Natiq çıxışında mövzunun əhəmiyyətindən danışıb və bu səpkili tədbirlərin keçirilməsinə görə Dövlət Komitəsinə təşəkkürünü bildirib.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov qeyd edib ki, xalqımız hər zaman tolerantlığı, eləcə də milli və dini dəyərlərinə bağlılığı ilə seçilib. "Milləti millət edən onun ortaq dəyərləridir. Yəni xalqımızı birləşdirən dəyərlər sistemi mövcuddur", - deyə Gündüz İsmayılov vurğulayıb.

Sədr müavini təəssüflə deyib ki, günümüzdə müsəlman ölkələrində dinin siyasiləşdirilməsi, ənənəvi İslamın zəiflədilməsi, məzhəbçiliyin güclənməsi kimi hallara rast gəlinir. Halbuki İslam dini sülh, əmin-amanlıq, inkişaf, elm və təhsilə böyük önəm verən dindir. İslamda dini radikalizm və xurafat elementləri yoxdur.

Sonda tədbir iştirakçılarının mövzu ilə bağlı sualları və fikirləri dinlənilib.

# ƏGƏR DİNİ LİDER TANRI QARŞISINDA MƏSULİYYƏTİNİ ANLAYARSA, HEÇ VAXT ŞƏXSİ MARAQLARINA UYĞUN QƏRARLAR VERMƏZ

***Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Feketenin "Cəmiyyət və Din" qəzetinə müsahibəsi***



**- Cənab Fekete, adətən, insanlar dinə yaşadıqları çox çətin anlarında, bir növ, nicat qapısı kimi üz tuturlar. Sizin dinə üz tutmağınıza, həyatınızı dinə həsr etməyinizə səbəb nə oldu? Yaşadığınız hər hansı çətinlik, yoxsa bu, sadəcə ailənizdən, yaşadığınız ortamdan irəli gələn ənənəçiliyin davamı idi?**

- Doğru deyirsiniz, hər kəsin dinə meyillənməsinin yolu fərqli olur. Mən səmimi inancları olan ailədə anadan olmuşam. Mənim valideynlərim, onların valideynləri Slovakiyanın Bratislava şəhəri yaxınlığında doğulub yaşayıblar. Kiçik yaşlarımda vəftiz olunmuşdum və kilsə ayinlərində iştirak edirdim. Yəni onda, bir növ, ənənə şəklində idi dinə yanaşma. Ancaq o dövrdə, yəni Sovet hakimiyyəti dövründə dinə təzyiqlər var idi. Doğrudur, bazar günləri kilsələrə getməyə maneələr törədilmirdi. Ancaq din sahəsində təhsil almaq müşkül məsələ hesab olunurdu. Qadağalar, çətinliklər var idi bu məsələdə. Mənim bəxtim onda gətirdi ki, yeniyetmə ikən – 14 yaşım olanda "Praqa baharı" baş verdi. Kommunistlərin hakimiyyəti zəiflədi və Kilsə Çexoslovakiyada da müəyyən qədər rahat fəaliyyət göstərməyə başladı. Həmin illərdə mən bir çox adam gördüm ki, əslində, kommunizm dövründə gerçək inanclı olublar, dinə gizlində inanıblar, gizlində ayinlər ediblər. "Praqa baharı"ndan sonra din artıq bir küncə sıxılmış, sadəcə nənə-babalarımızın riayət etdiyi ənənə olmaqdan çıxmış və gənclərin formalaşmasında da əsas elementə çevrilmişdi. Sanki mənim üçün yeni dünya açılmışdı və artıq öz şəxsiyyətimi dini dəyərlərlə identikləşdirməyə başladım. Bir sözlə, dini həyata atılmağımın bünövrəsi ailəmizdə qoyulmuşdu, "Praqa baharı" isə onu daha da möhkəmləndirməyimə şərait yaratdı.

*Azərbaycan əcnəbilərin heç bir maneəsiz, təzyiqsiz yaşaya, işləyə və öz dinini, əqidəsini yaşada biləcəyi gözəl ölkədir. Ona görə də hər zaman o fikri dəstəkləyirəm ki, tolerantlıq və multikulturalizm bu ölkə üçün gəlişigözəl sözlər deyil, bu, Azərbaycan xalqının həyat tərzinə çevrilmiş faktdır.*

**- Ancaq yəqin ki, buna qədər dünyəvi təhsil almısdınız.**

- Təbii ki. Orta məktəbi bitirdikdən sonra 4 illik gimnaziyaya daxil oldum və oranı da bitirdikdən sonra Bratislavadakı Yan Amos Komenski adına Universitetin riyaziyyat-geologiya fakültəsinə qəbul olundum. 1979-cu ildə həmin fakültədən magistr kimi məzun oldum. Ancaq mən ruhani həyata atılmaq haqqında düşünürdüm və paralel olaraq teologiya ilə də məşğul olurdum, oxuyurdum. Yəni rəsmi olaraq geoloq, qeyri rəsmi isə teoloq idim. (gülür) Dediyim kimi, o illərdə Çexoslovakiyada din sahəsində təhsil almaq çətin məsələ idi. Lakin öyrəndim ki, "Salezian" ordeni vasitəsi ilə qeyri-rəsmi dini təhsil almaq mümkündür. İvan Qrov kimi görkəmli şəxsiyyətlər bu işdə mənə köməklik etdi.

**- Bir çox inanclı insan hesab edir ki, hər yerdə Tanrının izi var. Xüsusilə, elm sahəsi ilə məşğul olan insanlar elm ilə dini uzlaşdırmaq üçün daim bu izin axtarışında olublar. Bəs siz necə, ruhani həyata başladıqdan sonra dünyəvi təhsilin sizə verdiyi biliklərdə Tanrının izini axtardınızmı?**

- Mən elə bir dövrdə təhsil almışam ki, bizə elmi ateizm də tədris edilirdi, beynəlxalq fəhlə hərəkatı da geniş təbliğ olunurdu. Yəni elə elmlər tədris edilirdi ki, birbaşa Tanrının varlığını inkara yönəlmişdi. Ancaq mənim imkanım var idi ki, gizlində də olsa, Bibliyanı oxuyum, dini bilgilər toplayım. Və bütün bunları təhlil edərkən görürdüm ki, dahi alimlər də ateizmin bütün suallara cavab verə bilmədiklərini etiraf edirlər. Xristianlığı tam mənimsədikcə ateizmin bəzi suallar qarşısında acizliyini görmək bir yana, mən istər təbiətin, istərsə də insanın yaradılışındakı Tanrı izini çox yaxşı dərk etməyə başladım və bu, mənim ruhaniyyətə daha çox meyillənməyimə kömək oldu.

**- Artıq 10 ildir ki, Azərbaycanda fəaliyyət göstərirsiniz. Qərbdə doğulmuş, Qərb mədəniyyətinin, ənənələrinin təsiri ilə böyümüş insan kimi Şərqdə işləmək təklifini necə qarşıladınız? Buraya gələnə qədər düşüncələriniz nə idi, gələndən sonra nə gördünüz və bu 10 ildə nələr gördünüz? Bir filmdə deyildiyi kimi, Şərq, doğrudanmı, incə məsələdir?**

- (Gülür) Əlbəttə. Ancaq sizə deyim ki, 2009-cu ilədək mənim həyatımın bir hissəsi Azərbaycanla bağlı idi. Hələ 2000-ci ildə "Salezian" ordeninin keşişi ikən mənə bildirdilər ki, Azərbaycanda dini ayinlərini icra etməkdə çətinlik çəkən bir qrup katolik var, ancaq kilsə tikintisi üçün ərazinin verilməsi məqsədi ilə hökumətə etdikləri müraciətə müsbət cavab alıblar və onlara təşkilatlanmaqda, dini ayinlərini həyata keçirmələrində yardım etmək lazımdır. Həmin ilin fevralında ilk dəfə Bakıya gəldim və həmin katolikləri axtarmağa, bir yerə toplamağa başladım. 2005-ci ilə qədər hər il ən azı bir həftəliyə buraya gəlirdim. Xatirimdədir ki, ilk vaxtlar Bakıdakı katolik əcnəbilər üçün dini ayinləri xarici məktəblərdən birində, digərləri üçün isə fərdi evlərdə keçirirdik. Çünki kilsəmiz yox idi. Ancaq 2002-ci ildə Papa II İohann Pavelin Azərbaycana səfərindən sonra, yeri gəlmişkən, mən də həmin nümayəndə heyətinin tərkibində idim, vəziyyət tamamilə dəyişdi – bizə kilsə inşası üçün ərazi hədiyyə olundu. Kilsəmiz tikildi və katolik icması artıq varlığı hiss edilməyən icmadan cəmiyyət həyatında aktiv fəaliyyəti ilə sezilən icmaya çevrildi. Bundan sonra nəinki Bakıdakı əcnəbi katoliklər, həm də kommunizm dövründə gizli vəftiz olunmuş yerli katolikləri bir yerə toplaya bildik. Təxminən 30-40 nəfər idilər və beləliklə, icmanı dövlət qeydiyyatından keçirtdik. Təqribən 4 illik fasilədən sonra – 2009-cu ildə yenidən Bakıya qayıdanda isə buranı tanımadım, çox inkişaf etmişdi. Üstəlik, işləmək üçün də şərait yüksək səviyyədə idi. Hökumət icmamızın fəaliyyət göstərməsi üçün hər cür imkan yaratmışdı. Bilirsiniz ki, icmamızın üzvləri Qarabağ müharibəsi nəticəsində yurd-yuvalarından didərgin düşmüş insanlara humanitar yardım göstərilməsində fəal iştirak etmişdilər. Əvvəlki səfərlərim zamanı dövlət və hökumət rəsmiləri ilə görüşlərimiz olmurdu, çünki buna ehtiyac da yox idi. Ancaq 2009-cu ildə buraya təyin edildikdən sonra bu işləri yavaş-yavaş öyrənməyə, yerli mühitə adaptasiya olmağa, insanlarla daha çox ünsiyyət qurmağa başladım. İlk işim rus dilini tam öyrənmək idi. Doğrudur, dövlət dili Azərbaycan dilidir. Ancaq rus dilini bilməklə, burada, xüsusilə, Bakıda ünsiyyətdə problem yaşamayacağımı bilmək məni çox sevindirdi. Alman və italyan dillərini yaxşı bilsəm də, rus dilini çox pis bilirdim. Ona görə də sıfırdan Azərbaycan dilini öyrənməyə başlamaqdansa, intensiv şəkildə ruscanı öyrənməyi seçdim və slovak olduğum üçün bu dili mənimsəmək o qədər də çətin olmadı. Həm də mən ilk vaxtlar elə hesab edirdim ki, buraya 2-3 illik göndərilmişəm və tezliklə məni daha hazırlıqlı şəxslə əvəzləyəcəklər. Düşünürdüm ki, mənim yaşımda buraya uyğunlaşmaq çətin olacaq, çünki həyatım boyu yalnız Slovakiyada işləmişdim və nəinki nə vaxtsa xaricdə çalışa biləcəyimi düşünməmişdim, hətta özümü buna hazır da hiss etmirdim. Burada keçirdiyim ilk illərdə müəyyən məsələləri başa düşmürdüm, ancaq Tanrıya şükürlər olsun, Bakıda illərdir işləyən qardaşlarımız yerli mühitə uyğunlaşmağımıza, işləri qurmağımıza çox yardım etdilər. Zaman keçdikcə gördüm ki, Azərbaycan əcnəbilərin heç bir maneəsiz, təzyiqsiz yaşaya, işləyə və öz dinini, əqidəsini yaşada biləcəyi gözəl ölkədir. Ona görə də hər zaman o fikri dəstəkləyirəm ki, tolerantlıq və multikulturalizm bu ölkə üçün gəlişigözəl sözlər deyil, bu, Azərbaycan xalqının həyat tərzinə çevrilmiş faktdır.

**- Yəqin ki, Azərbaycana təyin olunduğunuzu eşidəndən sonra Vatikanla Azərbaycan arasındakı indiki və keçmiş əlaqələr haqqında məlumatlar toplamağa başladınız. Çünki ölkələrimiz arasındakı münasibətlər son illərin məhsulu deyil.**

- Buraya gəldiyim birinci il ilk dəfə Quranı oxudum, Vatikan ilə Azərbaycan arasında mövcud olmuş əlaqələrin, Xristianlığın Azərbaycanda yayılmasının tarixçəsini öyrənməyə başladım. Buna qədər heç bir məlumatım olmayan ölkə haqqında bu qədər şeyi öyrəndikdən sonra Azərbaycanı, onun zəngin tarixini özüm üçün kəşf etdim. Xristianlıq Slovakiyada VIII-IX əsrlərdə yayıldığı halda, bu din Azərbaycana I-II əsrlərdə gəlmişdi və İslam artıq Azərbaycanda təşəkkül tapmışdı.

**- Azərbaycan tarixini öyrənməyiniz yaxşı haldır, şübhəsiz. Yuxarıda qeyd etdiniz ki, əvvəlcə buraya 2-3 illik göndərildiyinizi düşündüyünüz üçün sizə daha asan gələn rus dilini öyrənməyə üstünlük vermisiniz. Ancaq artıq 10 ildir buradasınız. Dilimizi öyrənmək çox çətin gəlir?**

- Rus dilinin qrammatikasının əsaslarını bilirdim, qismən başa düşürdüm. Kilsəmizi ziyarət edən xanımlardan biri slavyan dilləri fakültəsinin məzunudur. Onun köməyi ilə intensiv şəkildə 2 ilə ruscanı öyrəndim. Sonra Azərbaycan dilini öyrənmək haqqında düşünürdüm. Ancaq bilirsiniz, ziyarətçilərimizin əksəriyyəti rusdillilər və ya ingilisdillilərdir. Buna görə dedim ki, indi mənim üçün daha vacib olan ingilis dilini öyrənməkdir. Zamanla ingiliscəni də mənimsədim və bu gün ingilis dilini kilsə ayinlərini icra edə biləcək səviyyədə bilirəm. İndi artıq Azərbaycan dilini öyrənməyin vaxtıdır. (gülür)

**- Çoxdan vaxtıdır...**

- Əlbəttə. Ancaq həm yaşım, həm də işlərin çoxluğu imkan vermir. Kilsəyə təyin olunan yeni keşişlərə deyirəm ki, qardaşlar, əgər sizin məqsədiniz burada qalıb işləməkdirsə, Azərbaycan dilini öyrənməkdən başlayın, çünki rus dilini çox tez öyrənəcəksiniz. İlk bir-iki ilinizdə asudə vaxtınız nisbətən çox olacaq, çünki tədbirlərdə iştirak etmək, rəsmi şəxslərlə görüşlər və s. işləriniz olmayacaq. Məsələn, kilsəmizin gənc keşişləri Azərbaycan dilində çox əla danışır və başa düşürlər. Bəlkə də mən o vaxt səhv etdim, bəlkə də rus və ingilis dillərini öyrənməyə məcbur qalmışdım. Düzdür, Azərbaycan dilində qismən başa düşürəm. Ancaq görürəm, ya beynim çox yüklənib, ya yaşın təsirindəndir ki, hələ də dilinizi öyrənməyə başlamamışam. Əlbəttə, hansısa tədbirdə Azərbaycan dilində çıxış etmək mənim üçün hədsiz xoş olardı.

*Bəlkə də mən o vaxt səhv etdim, bəlkə də rus və ingilis dillərini öyrənməyə məcbur qalmışdım.*

**- Ümid edirəm, növbəti müsahibəmizdə ünsiyyət dili Azərbaycan dili olacaq.**

- (Gülərək Azərbaycan dilində) İnşallah! Əlbəttə, çox istəyərəm. Bilirsiniz, latın dilini bilən adam üçün Avropa dillərini öyrənmək çətin olmur. Amma Azərbaycan dili tamam fərqlidir.

**- Ölkəmizin tolerantlıq və multikultural dəyərlərə verdiyi önəm, bu dəyərlərin yaşadılması təbliğatı istiqamətində gördüyü işlər haqqında sualım olacaqdı, ancaq siz məni bir qədər qabaqladınız. Əlbəttə, dediyiniz xoş sözləri tolerantlığı və multikulturallığı yaşadanların deməsi başqa, ancaq canlı şahidlərinin dilindən eşitmək çox xoşdur. Maraqlıdır, həmin fikirləri Azərbaycandan kənarda da dilə gətirirsinizmi?**

davamı səh. 9

# “Dünyəvi dövlətdə din və təhsil”

**18 noyabr** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Quba Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Qubada;

**21 noyabr** – DQİDK və Cəbrayıl RİH-in birgə təşkilatçılığı ilə Biləsuvarda;

**26 noyabr** – DQİDK və Goranboy RİH-in birgə təşkilatçılığı ilə Goranboyda;

**27 noyabr** – DQİDK və Zərdab RİH-in birgə təşkilatçılığı ilə Zərdabda “Dünyəvi dövlətdə din və təhsil” mövzusunda seminar-treninqlər keçirilib.



Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və rayonun aktiv gənclərinin iştirakı ilə baş tutan tədbirlərdə DQİDK sədrinin müavini Gündüz İsmayılov, Quba RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov və Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev, Cəbrayıl RİH başçısının müavini Fəridə İbayeva və Rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanov, Goranboy RİH başçısının müavini Mirvari Ağamalıyeva, Zərdab RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Murad Həsənov və digərlərinin məruzələri dinlənilib.

Çıxışlarda təhsilin əhəmiyyəti vurğulanaraq bildirilib ki, həqiqi səmavi dinlərin heç biri dünyəvi təhsilə qarşı çıxmır, əksinə, öz müqəddəs kitablarında insanları oxumağa, elm öyrənməyə səsləyir. Məktəblilərin radikal dini cərəyanların təsirlərindən qorunmaları, ilkin dini bilgiləri etibarlı mənbələrdən öyrənmələri məqsədi ilə “Həyat bilgisi” fənni tərkibində sistemli şəkildə dini informasiya verilməsinin əhəmiyyətinə toxunulub.

Azərbaycan dövlətinin din siyasətinin əsas prioritet istiqamətlərinin müzakirə edildiyi tədbirlərdə din sahəsində milli kadrların hazırlanması prosesindən də danışılıb. Bu məqsədlə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutunun yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynadığı deyilib. Cari ilin sentyabr ayından etibarən ali təhsil ocaqlarında “Multikulturalizmə giriş” fənninin əsas fənn kimi tədris edildiyi diqqətə çatdırılıb.

Seminar-treninqlərin sonunda tədbir iştirakçılarının mövzu ilə bağlı sualları cavablandırılıb.

# ƏGƏR DİNİ LİDER TANRI QARŞISINDA MƏSULİYYƏTİNİ ANLAYARSA, HEÇ VAXT ŞƏXSİ MARAQLARINA UYĞUN QƏRARLAR VERMƏZ

əvvəli səh. 8

- İstər dövlət səviyyəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, istərsə də Şeyxülislam Allahşükür Paşazadənin təşəbbüsü ilə ölkə xaricində təşkil olunan tədbirlərdəki çıxışlarımda hər zaman Azərbaycan reallıqlarından, tolerantlığın və multikulturalizmin Azərbaycan modelindən söhbət açırıq. Özü də bu fikirləri o ölkələrdə edirik ki, həmin ölkələrdə bəzi siyasətçilər multikulturalizm ideyasının məhv olduğunu iddia edirlər. Mən də deyirəm, əgər siz bu düşüncələrinizdə əminsinizsə, mənim çoxmədəniyyətli, çoxmillətli ölkədəki – Azərbaycandakı təcrübəm də imkan verir ki, fikirlərinizin yanlış olduğunu sübut edim. Bildirirəm ki, Azərbaycandakı bu dəyərlər tarixdən gəlir və bu gün də dövlət siyasəti ilə dəstəklənir, inkişaf etdirilir. Siz Fransada yəhudilərə qarşı yönəldilən ksenofobiyanı, yaxud Hollandiyada, elə həmin Fransada müsəlmanlara edilən təzyiqləri görməyəcəksiniz. Doğrudur, Azərbaycan əhalisinin böyük hissəsi müsəlmanlardır. Ancaq burada heç bir dinin daşıyıcısına qarşı diskriminasiya yoxdur. Əksinə, siz Azərbaycanda əsrlərdir yaşayan yəhudilərə, iki yüz ildir yaşayan katoliklərə, lüteranlara, yaxud işləmək üçün bu məmləkətə gələn əcnəbilərə qarşı hörmət və ehtiram göstərildiyini, onlara yerli müsəlmanların hər işdə necə yardım etdiyini görəcəksiniz.

**- Bilmirəm bu fikrimlə razılaşacaqsınızmı, ancaq hərdən mənə elə gəlir ki, Azərbaycanda yaşanan tolerantlıq deyil, onu da aşan bir mərhələdir – empatiyadır sanki.**

- Haqlısınız. “Tolerantlıq” sözü mənim üçün başqalarının inancına qarışmamaq, fərqli düşüncəli insanlarla birgə öz həyatını yaşamaqdır. Burda şahid olduqlarıma əsaslanaraq deyə bilərəm ki, həqiqətən də, Azərbaycan xalqının sahib olduğu dəyər tolerantlıqdan bir qədər üstündür. Adi bir misal verim. Əgər hörmətli Şeyxülislam Allahşükür Paşazadə öz nəvəsinin toy mərasiminə məni də dəvət edirsə, bunu sadəcə tolerant münasibət kimi dəyərləndirmək olarmı? Əlbəttə, xeyr. Bu incə münasibət göstərir ki, Şeyxülislam həzrətləri Qafqaz müsəlmanlarının rəhbəri kimi tolerantlıq anlayışını yüksək səviyyədə qəbul edir.

> *Məncə, Ermənistan tərəfi hərb meydanında Azərbaycanın qarşısını ala biləcək gücə sahib olmadığını anlamır.*

**- 10 illik fəaliyyət dövrünüzdə yəqin ki, ən böyük problemimizlə - Dağlıq Qarabağ problemi ilə dərindən tanış olmusunuz. Bir ruhani və sıravi insan kimi münaqişənin həll yolunu necə görürsünüz?**

- Bəziləri deyirlər ki, artıq bəsdir, silahlarımızı götürüb müharibə edək. Mən bu düşüncədən qorxuram. Başa düşürəm, bəlkə də, həmin insanlar artıq məsələnin diplomatik yolla həllinin mümkünlüyünə inanmırlar və müharibəni yeganə çıxış yolu kimi görürlər. Ancaq bir inanclı insan kimi mən Roma Papası Fransiskin “güc yolu ilə uzunmüddətli və müsbət nəticə qazanmaq olmaz” fikrini dəstəkləyirəm. Çünki hər böyük zorakılığın kökündə xırda güc tətbiqi dayanır. Yəni hər xırda şiddət özü ilə daha böyük zorakılıqlar gətirir. Mən daim Tanrıya şükür edirəm ki, istər cənab Prezident İlham Əliyev, istərsə də bu məsələ ilə məşğul olan hökumət nümayəndələri hər zaman münaqişənin diplomatik yolla həllinin tərəfdarı olduqlarını bəyan edirlər. Gərək qarşı tərəf də, nəhayət, başa düşsün ki, hərb yolu seçilsə, hər iki tərəf əziyyət çəkəcək. Məncə, Ermənistan tərəfi hərb meydanında Azərbaycanın qarşısını ala biləcək gücə sahib olmadığını anlamır. Anlasa, orada da məsələni siyasi hakimiyyətin hansısa qolu deyil, insanların çözə biləcəyini başa düşən siyasətçilər ortaya çıxacaq. Xüsusilə Dağlıq Qarabağ ətrafındakı 7 rayonun məsələsi var. O rayonların sakinlərinin bu gün öz tarixi torpaqlarında yaşaya bilməməsi böyük günahdır. İlk növbədə, həmin 7 rayonun məsələsini həll etmək lazımdır ki, illər əvvəl oranı tərk etmiş insanlar öz dədə-baba yurdlarına qayıtsınlar. Sonra isə Dağlıq Qarabağın məsələsinə o prizmadan baxılmalıdır ki, kiçik bir “ada” üçün milyonlarla insan əziyyət çəkməsin. Bir sözlə, mən insanların vicdanlarına təsir etməli olan diplomatik yolla həllin tərəfdarıyam.

**- Bu gün, bəlkə də, bütün dünya ölkələri dinlərarası, mədəniyyətlərarası dialoqun vacibliyindən danışırlar. Amma bunu deyərkən başər övladı nə qədər səmimidir, bu prosesə nə qədər hazırdır və ümumiyyətlə, bu dialoq, doğrudanmı, qaçılmazdır?**

- Bu yaxınlarda Bakıda keçirilən Dünya Dini Liderlərinin II Bakı Sammitində çox maraqlı bir məsələnin şahidi oldum. Təəssüf ki, bu gün bütün dünyada din bir küncə sıxılmış vəziyyətdə saxlanılır, hesab edilir ki, gərək onun səsi çıxmasın və cəmiyyətdəki bütün problemləri siyasətçilər, iqtisadçılar və s. həll etsinlər. Ancaq Sammitdəki bir çox çıxışçının yekdil fikri bu oldu ki, siyasətçilərin, iqtisadçıların səyləri uzunmüddətli nəticə vermir, mütəmadi olaraq yeni münaqişə ocaqları baş qaldırır; gəlin həmin siyasətçilərin, iqtisadçıların, sosioloqların eşidilən səsinin yanına dini liderlərin də səsini əlavə edək. Çünki əgər dini lider Tanrının qarşısında məsuliyyət daşıdığını tam olaraq anlayırsa, heç vaxt şəxsi, yaxud təmsil etdiyi qrupun maraqlarını təmin edən qərarlar verməyəcək – necə ki siyasətçilər çox vaxt əvvəlcə öz maraqlarını, öz partiyalarının maraqlarını düşünürlər və bu da gərginliyə gətirib çıxarır. Bu gün yaşadığımız dünya adlı bu “kiçik kənd”də eyni havanı paylaşırıq, əgər bu gün mən onu çirkləndirsəm, təkcə özümü yox, qonşularımı da zəhərləmiş olaram. Bu baxımdan şadam ki, Azərbaycan dünyəvi ölkədir və burada din cəmiyyət həyatında diktə etməyə can atmır. Və həm də ona sevinirəm ki, cənab Prezident İlham Əliyev hörmətli Şeyxülislamın timsalında ölkədəki bütün konfessiyaların rəhbərlərinin fikirlərinə böyük önəm verir, hörmətlə yanaşır və nəzərə alır.

> *Bir qisim ateist, yaxud aqnostik var ki, hər hansı dini rəhbərin hansısa səhvi ucbatından özünü dinin çərçivəsində rahat hiss etmir. Ancaq bu o demək deyil ki, o adamın dini inancı yoxdur.*

**- Siz dini liderlərinin səsinin eşidilməsini istəyirsiniz, ancaq zaman keçdikcə sanki insanlar dindən uzaqlaşırlar. Hətta iddia edənlər də az deyil ki, dinə inananların sayı ilbəil azalır. Necə düşünürsünüz, belə bir tendensiya varmı və varsa, səbəbləri nədir, sizcə?**

- Mən bu fikirlə razı deyiləm. Mənim müşahidələrim göstərir ki, özünü dinin hər hansı forması ilə identifikasiya etməyən çox az adam var, çünki insan yaradılışdan inanclıdır. Məsələn, bir adam məscidə getməyə bilər, ancaq özünü inanclı hesab edər. Bir qisim ateist, yaxud aqnostik var ki, hər hansı dini rəhbərin hansısa səhvi ucbatından özünü dinin çərçivəsində rahat hiss etmir. Ancaq bu o demək deyil ki, o adamın dini inancı yoxdur. Cümə günləri məscidlərə gedən müsəlmanların dəqiq statistikasını aparmamışam, amma mənə elə gəlir ki, ölkə əhalisinin 20-30 faizini keçməz. Dəfələrlə söhbət etdiyim insanlar var ki, heç vaxt məsciddə olmayıblar, yaxud çox nadir hallarda gedirlər, lakin özlərini dini inancı olan müsəlman hesab edirlər. Bu baxımdan, əgər dediyiniz statistika hansısa dini ayinlərdə, mərasimlərdə iştirak edənlərin əsasında tutulubsa, azalma müşahidə edilə bilər. Məsələn, ola bilər ki, Almaniyadakı katoliklərin bir qismi Kilsənin iyerarxiyası ilə razılaşmadığı üçün kilsələrə getmir, ayinlərə qatılmır, ancaq özlərini inanclı hesab edirlər. Bir sözlə, dini mərasimlərdə iştirak etmək üçün dini ibadət yerlərinə gedənlərin sayında azalma ola bilər, ancaq bu o demək deyil ki, dinə inananların sayı azalır.

**Müsahibəni apardı: Saleh Arslan**

# "AZƏRBAYCANDA DÜNYƏVİLİYİN TARİXİ VƏ BU GÜNÜ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Noyabrın 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycanda dünyəviliyin tarixi və bu günü" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan DQİDK-nin sədr müavini Gündüz İsmayılov qeyd edib ki, dünyəvi dövlət anlayışı dinin hansısa formada idarəetmə prosesində iştirak etmədiyi dövlət deməkdir. Lakin dünyada bəzi dini qruplar dünyəvilik anlayışını istismar edirlər. Dünyəvi dövlətdə dövlət idarəçiliyində din iştirak etmir, amma dünyəvi dövlət o demək deyil ki, o, dinsizdir. Biz hər zaman bu məsələdə Ulu Öndər Heydər Əliyevin fikrini əsas sitat kimi nəzərdə tuturuq. Qeyd edirik ki, Azərbaycan dünyəvi dövlətdir, amma dinsiz ölkə deyil. Biz dünyəvi dövlət olsaq da, qanun qarşısında bütün dini qurumların bərabər olması prinsipini qəbul etsək də, dini qurumlara, dini konfessiyalara imkan olduğu qədər qayğı və diqqətlə yanaşırıq.

Daha sonra sekulyarizmin yaranması və tarixindən danışan Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) müəllimi, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov bildirib ki, dövlətin din siyasətinin əsasını dini etiqad azadlığının təminatı, dövlət siyasətində dinin rolu və dövlətin dinə münasibəti təşkil edir. Sekulyarizm - dinin dövlət institut və təşkilatlarından ayrılması, ictimai-siyasi aktivliyinin sıfra endirilməsi deməkdir. Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov Azərbaycanda fəaliyyət göstərən bütün dinlərin nümayəndələrinə eyni səviyyədə yanaşıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bu, bilavasitə Prezident İlham Əliyevin apardığı siyasətin nəticəsidir və bu siyasət gələcəkdə də davam edəcək. Qeyd edib ki, aparılan monitorinqlər və aidiyyəti qurumlardan gələn məlumatlar onu deməyə imkan verir ki, xaricdən idarə olunan müəyyən qruplar dünyəvilik prinsiplərinə qarşı çıxmağa cəhdlər göstərirlər.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov dünyəvilik prinsipinin aktual mövzulardan biri olduğunu qeyd edərək bildirib ki, dünyəvilik, başqa sözlə, sekulyarizm prinsipi Qərbdə yaranıb və inkişaf edib. Azərbaycanda hər zaman dünyəvilik prinsipi qorunub saxlanılıb. .

Öz çıxışında sekulyarizmə iki fərqli baxışın mövcud olmasını qeyd edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, bunlardan biri dünyəvilik anlayışına mənəvi məzmun qatmağı, digəri isə sadəcə ictimai, siyasi və hüquqi idarəetmə modeli kimi yanaşmağı nəzərdə tutur.

AMEA-nın Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobilii və başqaları çıxış edərək Azərbaycanda tolerantlığın və dünyəviliyin tarixi keçmişi və müasir dövrdəki yeri və rolu barədə danışıblar.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# Cəhalətin düşməni qadındır...

Çox sevdiyim bir fikir var. Deyir ki, cəhalətin düşməni qadındır, çünki qadın öyrənərsə, övladlarına da öyrədər. Azərbaycanın neft milyonçusu və filantropu, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbinin qurucusu H.Z.Tağıyev isə deyirdi ki, bir oğlana təhsil vermək bir insana təhsil verməkdir; bir qıza təhsil verməksə, bir ailəyə təhsil vermək deməkdir. Fransız yazıçısı Balzakın sözləri də bu fikirləri təsdiqləyici mahiyyətdədir: "Millətin gələcəyi anaların əlindədir".

Ana nəcib insanları həyata hazırlayan bir məktəbdir. Ən böyük sərkərdələri, dahi alimləri, güclü şəxsiyyətləri yetişdirən anadır. Düzdür, o bu işdə sevgisini, fədakarlığını, qayğısını ortaya qoyur. Ancaq savad, bilik və bunlar vasitəsilə əldə olunan özgüvən olmadan güclü, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək qeyri-mümkündür. Hər bir qadın, hər bir ana öz övladında gözəl əxlaq və savad verməlidir. Bu baxımdan hətta deyərdik ki, oxuyub öyrənmək, biliyə can atmaq müsəlman qadınının vəzifəsidir, onun üzərinə qoyulan məsuliyyətdir.

Ümumiyyətlə, müsəlman qadınının rolu mahiyyət etibarilə olduqca unikaldır. İslam onun üzərinə, həm övlad, həm həyat yoldaşı, həm ana olaraq, həm cəmiyyət, həm də özü ilə bağlı vəzifələr qoymuşdur. O, sevən həyat yoldaşı və ana, qayğıkeş övlad və bacı, vəfalı dost, sadiq bəndədir. Uca Yaradan onun həyatının bütün aspektlərini əhatə edən nizamlayıcı qaydalar müəyyənləşdirmişdir. İslamın qadına tanıdığı hüquqlardan biri də təhsil almaq hüququdur. Hətta artıq qeyd etdiyim kimi, bu, hüquqdan daha çox bir vəzifə, məsuliyyətdir. İlk növbədə, Allah qarşısında vəzifədir. Çünki "Zümər" surəsinin 7-ci ayəsində buyurulur ki, "**...Sonra Rəbbinizin hüzuruna qayıdacaqsınız. O sizə (dünyada) nə etdiklərinizi (bir-bir) xəbər verəcəkdir**", ardınca 9-cu ayədə deyilir ki, "**...De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!"** Müsəlman qadınının İslamın ona bəxş etdiyi şeyləri bilməsi və qiymətləndirməsi üçün oxuyub öyrənməsi, biliyə yiyələnməsi vacibdir. Çünki oxuyub bilmədən, öyrənmədən həyatda nəyin doğru, nəyin yanlış, nəyin gerçək, nəyin yalan olduğunu ayırd etmək çətin məsələdir. Əgər kifayət qədər savadlı deyilsənsə, hər kəs sənə öz həqiqətlərini qəbul etdirməyə, yalanı gerçək kimi göstərməyə çalışacaq.

İkincisi, övladları və ailəsi qarşısında vəzifədir. Çünki müsəlman qadın bilik səviyyəsini və bununla da imanını artıraraq savadlı gənc nəslin yetişməsinə və mənəvi inkişafına öz töhfəsini verə bilər. Ana hər körpə üçün ilk məktəbdir! O, ərinin yoxluğunda evə və uşaqlara cavabdehlik daşıyan həyat yoldaşıdır.

Övlad yetişdirmək, ilk növbədə, özünü yetişdirməkdən başlayır. Bilik və hikmət olmadan isə özünütərbiyə mümkün deyil. Odur ki, qadınların da kişilər kimi oxuyub təhsil alması, biliklərə yiyələnməsi vacib məsələdir. Hətta deyərdim ki, kişilərdən daha çox qadınların təhsil alması vacibdir. Çünki ana olaraq qadın uşaq tərbiyəsində, onun şəxsiyyətinin formalaşmasında təməl daşı qoyan insandır.

Təhsil həm də qadının özü qarşısında vəzifəsidir. Çünki təhsil özgüvən deməkdir. Təhsil heç kimə yük olmadan öz ayaqları üzərində dayanmağı bacaran qadın deməkdir. Təhsil qadının özünü şəxsiyyət kimi təsdiqləməsi, həyatda məqsədini müəyyənləşdirə bilməsi, cəmiyyətə bir faydasının dəydiyini görməsi deməkdir. Həm də ruhu canlı, diri saxlayan oxuyub öyrənmək həqiqəti, doğrunu, gözəli axtarmaq deməkdir. Oxumaq ruhu ucaldır və insanı həm öz gözünüzdə, həm də başqalarının gözündə dəyərli edir.



Üstəlik, deyim ki, təhsil almaq hüququmuzun olmasının özü belə bizə lütfdür. Elə bir ölkədə yaşayırıq ki, təhsil almaq çox rahatdır. Bunun qədrini bilməliyik, dəyərləndirməliyik. Çünki elə ölkələr var ki, insanlar orada təhsil almaq hüququndan məhrumdurlar. Ya hədsiz dərəcədə yoxsulluq, ya da bitib-tükənməyən müharibələr uşaqların məktəbə getməsinə, normal təhsil almasına imkan vermir.

Ümumiyyətlə, təhsil insan inkişafının ən mühüm tərkib hissələrindən biridir və həyat keyfiyyətini dəyişir. Hər bir cəmiyyətin intellektual inkişafı və dövlətin gələcəyi üçün təhsil vacibdir. "Təhsil haqqında" Azərbaydan Respublikasının Qanununda təhsilin üç növü göstərilir: formal, qeyri-formal və informal. Formal təhsil - dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır. Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil, yenidənhazırlanma təhsili, təkrar ali və ya orta ixtisas təhsili dövlət təhsil sənədinin verilməsi ilə başa çatdığı üçün formal təhsil hesab edilir. Qeyri-formal təhsil isə müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil formasıdır.

İnformal təhsil dedikdə özünütəhsil yolu ilə biliklərə yiyələnmə forması başa düşülür. Bu da çoxlu kitablar oxumaq, mütaliə yolu ilə mümkündür. Bir dəfə Albert Eynşteyndən soruşurlar ki, biz uşaqlarımızı daha ağıllı necə yetişdirə bilərik? Onun cavabı sadə və müdrik idi: "Əgər uşaqlarınızın ağıllı olmasını istəyirsinizsə, onlara nağıllar oxuyun. Əgər onların daha ağıllı olmasını istəyirsinizsə, onlara daha çox nağıl oxuyun".

Amerikalı yazıçı Nil Geyman deyir ki, savadlı uşaqlar yetişdirməyin ən yaxşı yolu onlara oxumağı öyrətmək və bunun gözəl bir əyləncə olduğunu göstərməkdir. Biz uşaqlarımıza ucadan, onları sevindirən kitablar oxumalıyıq. Onlarda kitaba maraq oyatmalıyıq. Özləri oxumağı öyrənsələr belə, bu vərdişi tərgitməməliyik. Ucadan oxumağı birlik anına, heç kimin telefonlara baxmadığı, dünya zövqlərinin bir kənara qoyulduğu zamana çevirməliyik: "Ədəbiyyat sizə başqa dünyanı göstərə bilər. Sizi heç vaxt olmadığınız yerlərə apara bilər. Sehrli meyvələrin dadına baxanlar kimi bir dəfə başqa dünyalara səyahət etdikdən sonra siz böyüyüb, boya-başa çatdığınız dünyadan artıq heç vaxt bütünlüklə razı qalmayacaqsınız. Narazılıq yaxşı şeydir. Narazı insanlar öz dünyalarını dəyişə və yaxşılaşdıra bilərlər".

Fikirlərimi ümumiləşdirsəm, oxuyub təhsil almaq inkişaf deməkdir. Məhəmməd peyğəmbərin (s) bu hədisini, məncə, elə inkişafa, təhsilə çağırış kimi götürə bilərik. Allah Rəsulu (s) buyurur ki, iki günü bir-birinə bərabər olan ziyandadır. Ən əsası isə təhsil bizim əlimizdə "silah"dır. Əgər həyatda nəyinsə uğrunda mübarizə aparmaq istəyiriksə, bu "silah" olmadan mübarizədən qalib çıxa bilmərik.

**Güney NAMAZOVA**

İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2015

# NİZVA



Oman Sultanlığı Ərəbistan yarımadasının cənub-şərqində yerləşir. Cənub-qərbdə Yəmən, qərbdə Səudiyyə Ərəbistanı Krallığı, şimal-qərbdə isə Birləşmiş Ərəb Əmirlikləri ilə həmsərhəddir. Dövlətin əsası 23 İyul 1970-ci ildə qoyulub.

Omanın rəsmi dili ərəb dilidir. Ölkədə bəluc, kumzari, harsusi, mehri, hobyot dillərindən də istifadə olunur. Omanın təqribən 5 milyon əhalisi var. Ölkə əhalisinin təxminən 86%-ni müsəlmanlar, 6.5%-ni xristianlar, 5.5%-ni hinduistlər, 0.8%-ni buddistlər, 0.1%-ni yəhudilər, 1%-ni digər dinlər, 0.2%-ni isə dini inancı olmayanlar təşkil edir.

Omanda dini bayramlara böyük önəm verilir. Xüsusilə Ramazan və Qurban bayramında, eləcə də qəndillərdə şəhərlərdə dini festivallar təşkil edilir. Yeni il, Merac qəndili, Mövlud qəndili, Ramazan bayramı, Qurban bayramı, Dirçəliş Günü (23 iyul), Sultan Qabusun Doğum günü (18 noyabr) Omanlıların təntənə ilə qeyd etdikləri bayramlardır.

Omanın əsas gəlir sahəsi neft sektoru hesab edilir. Son dövrlərdə xarici investisiyanın hesabına burada turizm inkişaf edib. 2012-ci ildə paytaxt Məsqət ərəb turizminin paytaxtı seçilib. Omanda incəsənət sahəsi olan əl işləri və memarlıq daha çox inkişaf edib. Bu da turistlərin bölgəyə axınına şərait yaradır. Ölkədə hər il iyul ayında təşkil edilən "Salalah turizm festivalı"nda küçələrdə sənətkarların hazırladığı incəsənət nümunələri nümayiş olunur. "Oman Gözəl Sənətlər Cəmiyyəti", "Oman Qadınlar Cəmiyyəti", "Oman Saray Ordusu" kimi təşkilatların təşkil etdiyi festival paytaxt Məsqətin küçələrini bürüyür.

Oman Sultanlığının ən qədim şəhərlərindən hesab edilən, paytaxt Məsqətdən 140 km məsafədə yerləşən Nizva şəhəri tarixən ticarət, din, təhsil və mədəniyyət mərkəzi olmuşdur. Nizvadakı bazar ərəb dünyasının ən böyük bazarlarından hesab edilir. Burada ölkənin milli incəsənətinə məxsus bir çox əl işi məhsulu tapmaq olar.

Təxminən 75 min insanın yaşadığı, ərazisi 3.500 km² olan Nizva hicrətin ilk əsrlərindən etibarən İslam sivilizasiyasının elm və mədəniyyət ocağına çevrilmişdir. Onun 793-cü ildə omanlıların mərkəzi şəhəri olması İslam aləminin mədəni və intellektual həyatında böyük töhfələr verən din xadimlərinin, mütəfəkkir və alimlərin yetişməsinə rəvac vermişdir. Bu səbəbdən də şəhərə "Təxt əl-Ərəb" və ya "Beydət əl-İslam" (İslamın qalası) deyilir. Nizvanı ziyarət etmiş orta əsrlərin ən məşhur ərəb səyyahı İbn Bəttutə dağın ətəyində yerləşən, meyvə bağları və dərələrlə əhatələnən şəhərdə keyfiyyətli bazarların və möhtəşəm məscidlərin olduğunu bildirmişdir.

2015-ci ildə Nizva şəhəri İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Burada çoxlu tarixi məscid vardır. Peyğəmbər məscidi üslubunda tikilən şəhərin ən qədim məscidi sadə memarlığı ilə seçilir. Nizvada inşa olunan ilk məscidlər hündür minarələrinin olmaması ilə fərqlənir. Zaman keçdikcə şəhərdə tikilən məscidlərin sayı çoxalmışdır. Bu məscidlərin bəziləri ilə tanış olaq.

**Əl-Şəvaznə**

Əl-Şəvaznə məscidi Nizvanın əl-Əkr məhəlləsində yerləşir. Bir çox alimin tez-tez ziyarət etdiyi bu məscid iman, fiqh, hədis və dil elmlərinin öyrənilməsinə öz töhfəsini vermişdir. VI əsrdə inşa edilən ibadət ocağı bir neçə dəfə təmir olunmuşdur. Məsciddə sonuncu təmir-bərpa işləri 1579-cu ildə aparılmışdır. Onun mehrabının düzbucaqlı xarici hissəsi çiçək motivləri və yarpaq naxışları ilə əvəz olunan 15 oyma ilə bəzədilmişdir.

**Səal məscidi**

Nizvanın, eləcə də Omanın ən qədim və ən böyük məscidlərindən biri də hicri 8-ci ildə inşa edilən Səal məscididir. Bu məscid taxta qapılı geniş qülllədən və kiçik bir dəstəmazxanadan ibarətdir. Dini təhsil sahəsində aparıcı rola malik olmuş bu ibadət ocağı da tarix boyu bir neçə dəfə təmir edilmişdir.

**Şərca məscidi**

Şəhərin digər memarlıq nümunəsi olan, bu günə qədər yaxşı formada qalan Şərca məscidi 1518-ci ildə sadə dördbucaqlı formada inşa edilmişdir. Kiçik bəzəkli və çiçəkli motivlərlə əhatə olunmuş 15 bəzəkli dairəvi oymalardan ibarət 4 metr hündürlüyü və 6 m enindəki məscidin mehrabının görünüşü əl-Cinə məscidinin dizaynına bənzəyir.

**Əl-Cinə məscidi**

Əl-Cinə vahəsinin adını daşıyan məscid qədim Səal vilayətində yerləşir. Məscid dəfələrlə təmir edilmiş, sonuncu restavrasiya işləri isə 1519-cu ildə aparılmışdır. Onun hicri təqvimi ilə X əsrin dizayn üslubunu özündə əks etdirən mehrabına (uzunluğu 4m, eni 3m) çiçək naxışlı çərçivə içərisində kufi xəttilə "kəlimeyi-şəhadət" həkk edilmişdir. Mehrabın xarici çərçivəsində isə müxtəlif həndəsi və çiçək dizaynlarını əks etdirən 16 irili-xırdalı gips oymalar təsvir olunmuşdur. Mehrabın hər iki tərəfində Oman mehrablarının dizaynında geniş yayılan bitki motivləri ilə bəzədilmiş düzbucaqlı formalı çərçivə qurulmuşdur.

**Nizva Cümə məscidi**

Məscid hicri II əsrdə, İmam Həsən bin Abdullahın hakimiyyəti dövründə tikilmişdir. Həmin dövrdə din alimləri cümə namazlarının Omanın paytaxtı Sohardan kənarda qılınması barəsində razılığa gəlmişdilər. Məsciddə əvvəlcə İmam Əssalt ibn Malikin, daha sonra Sultan ibn Yusuf ibn Malik əl Yarubinin dövründə təmir-bərpa işləri aparılmışdır. Sultan Qabusun tapşırığına əsasən isə məscid dini və tarixi nüfuzuna layiqli tərzdə üçüncü dəfə 1970-ci illərin əvvəllərində restavrasiya edilmişdir. Bundan sonra buraya "Sultan Qabus Cümə məscidi" adı verilmişdir.

Məscidlərlə yanaşı, şəhərdə olan qalalar da Nizva şəhərinin memarlıq inciləri sayıla bilər.

**Nizva qalası**

Yuvarlaq divarı ilə seçilən Nizva qalası Oman Sultanlığının ən qədim memarlıq nümunələrindəndir. Hündürlüyü 24 metr olan qala 1660-cı ildə Sultan ibn Saif əl-Malik əl-Yarubi tərəfindən hökumət binası kimi inşa edilmişdir. Hazırda qalada ənənəvi əl işlərinin sərgiləndiyi muzey də fəaliyyət göstərir.

**Əl-Rudaida qalası**

Qala şəhərdən 24 kilometrlik məsafədə, əl-Muayden Vadisinin girişində yerləşir. Ənənəvi memarlıq üslubu ilə hərbi istehkam şəklində dizayn edilmiş qala geniş divarları, kərpic qüllələri və qeyri-adi dekorativ naxışları ilə diqqəti cəlb edir.

Hazırladı: **Tural VƏLİZADƏ**

## Sidneydə yerli sakinlərin məscid tikintisinə qarşı etirazları nəticəsiz qalıb

Avstraliya müsəlmanları üçillik məhkəmə çəkişmələrindən sonra Sidneyin qərbində məscid tikmək üçün icazə ala biliblər. "Praspect" İslam Cəmiyyəti sənədləri təqdim etdikdən 3 il sonra məscidin tikintisinə icazə alıb.

Blektaun Şəhər Şurası əvvəlcə məscid tikintisinə icazə verməmişdi. Səbəb kimi də qonşuluqlarında daha bir məscidin olmasını istəməyən yerli sakinlərin çoxsaylı şikayətlərini, həmçinin tıxacları və ərazidəki təhlükəsizliklə bağlı narahatlıqları əsas gətirmişdi. The Daily Mail xəbər verir ki, müsəlmanlar bu qərardan məhkəməyə müraciət etmişdilər.

Torpaq məsələləri üzrə məhkəmədə keçirilən iclasdan sonra hakim müsəlmanların lehinə qərar qəbul edib. O bildirib ki, yeni məscidin səhər saatlarında yerli sakinlərə nəqliyyat problemləri yaşatması ehtimalı azdır.

Qeyd edək ki, tikiləcək məscid kompleksinə namaz zalı, dayanacaq, yemək otağı, ofis, kitabxana və sinif otaqları daxildir.

## Amsterdamda azan ilk dəfə səsgücləndiricilər vasitəsilə verilib

Niderlandın paytaxtındakı Blauve məscidi Cümə namazına çağırışın səsgücləndirici cihazlar vasitəsilə həyata keçirilməsinə icazə aldıqdan sonra Amsterdamda azan ilk dəfə bu üsulla verilib.

Bundan əvvəl azanın səsgücləndiricilər vasitəsilə verilməsi cəhdi xoşagəlməz hadisə ilə nəticələnmişdi, belə ki, naməlum şəxslər səs kabelini kəsmişdilər. Müsəlman icması kabelin milliyyətçilər və ya şəhər merinin tərəfdarlarından biri tərəfindən kəsildiyindən şübhələnir.

Qeyd edək ki, hazırda 500-ə yaxın məscidin olduğu Niderlandda 1980-ci ildən etibarən, ölkə qanunlarına görə, bütün dinlərin din xadimlərinə inananları ibadətə çağırmağa icazə verilir. Bununla yanaşı, bələdiyyələr azanın müddətini və səsinin gurluğunu məhdudlaşdırmaq hüququna malikdirlər.

# NƏSİMİ YARADICILIĞINDA İNSAN LEYTMOTİVİ

Ədəbi portreti əbədi dünyanın ölməz sənətkarları sırasında dayanan, poeziyamızda çox əlamətdar bir dövrün başlanğıcının bayraqdarı olan, Azərbaycan dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən qüdrətli sənətkar İmadəddin Nəsiminin zəngin irsinin daha geniş formada araşdırılması, qorunub saxlanılması və gənc nəslə təbliğ olunmasına dövlət səviyyəsində hər zaman diqqət yetirilmişdir. Hələ SSRİ dövründə – 1973-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə UNESKO tərəfindən Nəsiminin 4 günlük yubileyi keçirilmiş, 1980-ci ildə Bakı şəhərində şairə heykəl qoyulmuş və Hələb şəhərində küçəyə Nəsiminin adı verilmişdi. Bundan başqa, böyük sənətkar barəsində çoxlu şeir, poema və roman yazılmış, film çəkilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 15 noyabr 2018-ci il tarixli və 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması ilə bağlı 11 yanvar 2019-cu il tarixli Sərəncamları şübhəsiz ki, xalqımızın ədəbi-bədii dəyərlərinə verdiyi qiymət və ədəbiyyatımızın inkişafına, klassik şairlərin yaradıcılığına böyük diqqətin göstəricisidir. Bu Sərəncamlar müxtəlif ədəbi-tarixi qaynaqlarda barəsində ziddiyyətli məqamlar yaratmaq istənilən şamaxılı İmadəddin Nəsiminin milli mənsubiyyətinə şübhə yeri qoymamaqla yanaşı, həm də Nəsimini bir daha bizə xatırlatmış və qaytarmış oldu.

Nəsimi poeziyamızın fatehi, şeirimizin ləyaqət, cəsarət və şücaət simvolu, dünya xalqlarının ortaq mənəvi dəyəridir. Misilsiz ədəbi-bədii sənətkarlıq nümunələri ilə ədəbi irsimizi zənginləşdirən dahi sənətkar inandığı həqiqət və dəyərlər uğrunda canı, qanı bahasına mübarizə aparmışdır. Onun adı Yaxın Şərq xalqlarının ədəbiyyat tarixində qorxmazlıq rəmzinə çevrilmiş və hər zaman ehtiramla xatırlanmışdır.

Tarix boyu xurafata yoluxmuş və din adı altında gizlənmiş bir qrup insan tərəqqipərvər alimlərin fikirlərini ya anlaya, ya da həzm edə bilməmiş, ictimai həyatda onlara qarşı mənfi fikir formalaşdırmışlar. Ümumiyyətlə, fundamentalist ruhlu radikal dini dairələr hər zaman çağdaş fikrə qarşı çıxmış və onu məhv etməyə çalışmışlar. Nəsimi də müsəlman cəmiyyətinin ən başlıca problemlərdən biri olan ifrat təməlçilik və təəssübkeşliyin qurbanına çevrilmişdir. O, İslama qarşı deyil, din adı altında şəriət oyunbazlığı edən qaragüruhra qarşı çıxmış, onların çürük ehkamlarını öz cəsarətli qələmi ilə süngüləmişdir.

Münkirin iqrarı yoxdur Həqqə, ey sahibnəzər,
Həqqə iqrar eylə sən, münkirdən iqrar istəmə.

Nəsimi burada iman sahiblərinə deyir ki, Allahı tanımayanda iman olmaz, bələlarınə inanmayın. Yalnız Allaha inanın və Ondan kömək diləyin. Çünki ədalət və hidayət sahibi Odur.



Ancaq İslam əxlaqı və mənəviyyatından məhrum olan Hələb ruhaniləri onu küfrdə günahlandırıb "kafir" damğası vurmaqdan çəkinməmişlər. İşıq dolu Nəsimi və onun münəvvər ideyaları orta əsrlərin qaranlığında bir az da qaralmış olan insan ruhları qarşısında yalnız və əliyalın qalmışdır. Ustadı Nəiminin edamından sonra onun "Vəsiyyətnamə"sinə əsasən, Təbrizə, Anadoluya (Türkiyəyə) getmiş, ömrünün son illərini Suriyada yaşamışdır. 1417-ci ildə isə Misir sultanı Malik əl-Müəyyəd Şeyh əl-Mahmudinin əmri və ruhanilərin fətvası ilə dərisi diri-diri soyularaq (rəvayətə görə) edam edilmişdir.

Dahi sənətkarın düşüncələri bizə qəliz görünsə də, əslində, onun konsepsiyasında iki tərəf – cahil və kamil insan mövzusu var. Tarix boyu cahil insanlar kamil insanlara zülm etmiş, Peyğəmbər və Allah dostları hər zaman cahillərdən əziyyət çəkmişlər. Dünyanın işıqlı yönünü təmsil edən kamil insanlar isə Allahın bəşər övladı üçün müəyyən etdiyi mənəvi kriteriyaları ömürlərinə düstur edib yaşayan və başqalarına təlqin edən şəxslər olmuşlar. Şairin fikrincə, yalnız kamil, yəni pisliklərdən təmizlənmiş insan böyük məqama qalxa, əsl şəxsiyyət ola bilər. "İnsan, ilk növbədə, insanlığa faydalı olmalıdır" prinsipini önə çəkən sənətkar müsbət məziyyətləri olmayan insanların yırtıcılardan heç bir fərqinin olmadığını qeyd etmişdir.

Amerikalı yazıçı Alvin Toffler boşuna demirdi ki, XX əsrin cahilləri oxuyub-yazma bilməyənlər deyil, öyrənməyi öyrənməyənlər olacaq. XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının mətbuat müstəvisində birləşərək cahilliyə qarşı mübarizə aparmaları, bəlkə də, bu həqiqətin daha aydın dərk edilməsindən irəli gəlirdi.

XXI əsrdə yaşamağımıza baxmayaraq, hələ də insan qanı tökərək bəşəri cinayətlərə səbəb olan, insani keyfiyyətlərini itirmiş və özlərini müsəlman adlandıran təhdidedici qruplaşmalar mövcuddur. Dünya müsəlmanlarının humanist imicini yanlış istiqamətdə təqdim edən, İslam ehkamlarının ziddinə gedən bir qrup azğın, cahil insanın qəribə fətvaları ucbatından dünyada milyonlarla insan əziyyət çəkir.

Dünyada baş alıb gedən min cür fitnə-fəsadın və anarxiyanın baiskarları da, əslində, əlləri günahsız insanların qanına bulaşmış cahil insanlardır. Bir zamanlar dünya sivilizasiyasının mühüm qütbündə təmsil olunan əzəmətli Suriya bu gün dünya üçün müharibə səhnəsidir. İndi bu qədim tarixə, ənənələrə malik ölkə xaos, vətəndaş müharibəsi, aclıq və səfalət girdabında çırpınmaqdadır. BMT-nin hesabatına görə, 2011-ci ildən bu tərəfə 1 milyondan çox suriyalı öldürülüb və 11.7 milyon insan, yəni Suriya əhalisinin təxminən üçdəikisi həyatda qala bilmək üçün beynəlxalq humanitar yardımdan asılıdır. Sabitliyə çörək qədər ehtiyac duyulan bu ölkədə hər şey Allahın ümidinə qalıb.

Böyüməkdə olan gənc nəsil Nəsiminin fikirləri ilə yaxından tanış olmaq üçün onun əsərlərini mütaliə etməli, orada təbliğ olunan ümumbəşəri ideya və prinsiplərdən faydalanmalıdır. Çünki dahi şairin yaradıcılığında altından qırmızı xətlə keçən mənəvi ideyalar sağlam vətəndaş cəmiyyətində fərdlərin ictimai-mədəni münasibətini təmin edən insanpərvərlik, ləyaqətli və dəyanətli olmaq kimi əsas faktorlardandır. Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində Xudayar bəy kimi yetənə yetib, yetməyənə daş atan insan tipləri, şübhəsiz, dünyanın mənəvi düzənini pozmağa can atacaqlar. Ancaq Nəsimi və onun humanist, nəcib ideyaları orta əsrlərin qaranlıq fikirlərini üstələyəcək, qazanan yenə Nəsimilər olacaq!

**Tacəddin Əli,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı*

# ÜÇ DİNİN NÜMAYƏNDƏSİ EVTANAZİYA ƏLEYHİNƏ BƏYANAT İMZALAYIB



"Catholicnewsagency"-nin verdiyi xəbərə görə, katolik, yəhudi və müsəlman din xadimləri Vatikanda evtanaziya və kliniki intiharın bütün formaları əleyhinə bəyanat imzalayaraq Papaya təqdim ediblər.

Bəyanatın ideyası həkim etikası üzrə israilli ekspert, ravvin Abraham Steynbergə məxsusdur. O bu ideyanı Papa ilə bölüşdükdən sonra I Fransisk Papa Həyat Akademiyasına layihənin həyata keçirilməsi tapşırığını verib və sənədin hazırlanması üçün dinlərarası komitə yaradılıb. Bəyanatı Papa Həyat Akademiyasının rəhbəri, arxyepiskop Vinçenzo Palya, tanınmış yəhudi və müsəlman din nümayəndələri imzalayıblar.

Sənəd müəllifləri bildirirlər ki, üç ibrahimi din "evtanaziyanın hər hansı bir formasına, yəni birbaşa, özbaşına və qəsdən kliniki qətl əməlinə, həmçinin həkimin köməyi ilə intihara qarşıdır, çünki belə bir hərəkət insan həyatının dəyərinə tamamilə ziddir; buna görə də mənəvi və dini cəhətdən qəbuledilməzdir, istisnasız qadağan olunmalıdır".

Sənəddə o da bildirilir ki, xəstənin qəsdən ölümünə, evtanaziyanın hər hansı bir formasına birbaşa və ya dolayı yolla yardım etməsi üçün tibb işçisinə, xüsusilə bu, onun inancına və əqidəsinə ziddirsə, təzyiq göstərilməməlidir. Bu cür tibbi xidmətə yerli hüquq sistemi tərəfindən icazə verilsə belə, "həyat və ölüm məsələlərinə mənəvi etiraz vicdan azadlığı məsələlərinə aiddir, buna görə də hamıya hörmət edilməlidir". Qeyd olunur ki, katolik, yəhudi və müsəlman din xadimləri bu prinsiplərin tez-tez mövcud dünyəvi humanist dəyərlər və reallıqlar ilə ziddiyyət təşkil etdiyini başa düşsələr də, əsas məqsədlərlə bağlı fikirlərində və yanaşmalarında şərikdirlər.

Eyni zamanda, preambulada vurğulanır ki, "ölən şəxsə kömək etməyin mənəvi, dini, sosial və hüquqi aspektləri" tibbin ən mürəkkəb və ən mübahisəli məsələlərdən biri hesab olunur.

# İSVEÇDƏ XAÇSIZ KİLSƏ ŞƏKLİNDƏ MİLAD BƏZƏKLƏRİ HAZIRLANIB






Sosial şəbəkələrdə İsveçin pərakəndə satış şəbəkəsi "Rusta"nın yeni Milad bəzəklərinin şəkli paylaşılıb. "Regnum" agentliyinin məlumatına görə, bu, damında xaç işarəsi olmayan kilsələrdir.

Şirkətin müştəri dəstəyi xidmətinin göndərdiyi elektron məktublarda bildirilir ki, "Rusta" bu addımı müsəlman və digər konfessiyalara mənsub insanları da öz müştəriləri sırasına qatmaq məqsədilə atıb.

Elektron məktubların həqiqi olduğunu deyən şirkət nümayəndələri bildiriblər ki, Rustanın bu addımının bəziləri tərəfindən narazılıqla qarşılandığından xəbərdardırlar. Ancaq ticarət şəbəkəsi daha çox müştəri qazana bilmək üçün kilsələrin damındakı xaçı götürmək qərarına gəlmişdir.

## İTALİYANIN YEPİSKOP KONFRANSININ PASTORAL AGENTLİYİ "PAÇAMAMA" DUASINI DƏRC EDİB



"Catholic World News" xəbər agentliyinin verdiyi məlumata görə, İtaliyanın Yepiskop Konfransının Pastoral Agentliyi "Missio" "İnk xalqının Yer Anaya duası" kimi xarakterizə olunan "Paçamama"nı dərc edib. Duada deyilir: "Bu yerlərin Paçamaması, bu torpağın bərəkətli olması üçün bu qurbanı istədiyin kimi ye və iç. Paçamama, mehriban ana, xeyirxah ol! Xeyirxah ol! Elə et ki, öküzlər yaxşı gəzsin və yorulmasın. Elə et ki, toxum yaxşı cücərsin, ona pis bir şey olmasın, soyuq onu məhv etməsin və yaxşı qida alsın. Biz səndən bunu istəyirik: bizə hər şeyi ver. Xeyirxah ol! Xeyirxah ol!"

Qeyd edək ki, "Paçamama" duası İtaliya Yepiskop Konfransının nəşrinə daxil olan üç duadan biridir. Digər iki duadan birincisi "Tək və Üçlü Tanrıya" edilən duadır. Papa I Fransisk 2015-ci ildə "Laudato si" adlı müraciətini onunla tamamlamışdı. İkinci dua "Gülümsəyin" sözləri ilə başlayan bir mətndir (illərdir müxtəlif italyan saytları bu mətni Mahatma Qandinin şeiri kimi səciyyələndirir).

## ABŞ-DA "İSA PEYĞƏMBƏRİN İDMAN AYAQQABILARI" İSTEHSAL OLUNUB



Ayaqqabının platforma hissəsinə İordan çayından götürülmüş və təqdis olunmuş boyalı su doldurulub, yan tərəfində Matta İncilində İsa Məsihin su üzərində necə yeridiyini təsvir edən mətnin abreviaturası yerləşdirilib. Qaytanlar çarmıxla bəzədilib. Parlaq qırmızı içlik isə Roma papalarının ənənəvi ayaqqabılarını xatırladır.

İdman ayaqqabıları üzərində mələk və papanın möhürünə bənzər möhürün təsvirinin olduğu qutulara yerləşdirilib. "Jesus Shoes" ayaqqabıları "Nike Air Max 97" idman ayaqqabısının modelindən ilhamlanaraq hazırlansa da, tanınmış idman markasının onların yaradılması ilə heç bir əlaqəsi yoxdur.

Qiyməti 3 min dollar olan 20 cüt idman ayaqqabısı ABŞ-da cəmi bir neçə dəqiqə ərzində satılıb.

## MƏSCİD UŞAQLAR ÜÇÜN MAVİ RƏNGƏ BOYANDI



20 noyabr tarixi BMT Baş Assambleyası tərəfindən 1954-cü ildə Ümumdünya Uşaqlar Günü olaraq elan edilmişdir. BMT-nin uşaq fondu UNICEF bu gün münasibətilə dünyada uşaqların qorunması və rifahına həsr olunmuş tədbirlər təşkil edir.

Cari il martın 15-də Yeni Zelandiyanın Kraystçörç şəhərində törədilmiş terror aktından əziyyət çəkən "ən-Nur" məscidi də bu gün münasibətilə keçirilən tədbirlərə qoşulub. Belə ki, məscid bütün uşaqların təhlükəsiz və firavan yaşamaq hüququna dəstək məqsədilə 3 gecə UNICEF-in simvolu olaraq mavi rənglə işıqlandırılıb. Bu barədə "Stuff.co.nz" xəbər verib.

"Bu, bütün uşaqların təhlükəsizlik hüququna sahib olduqlarını səmimi şəkildə xatırlatmaqdır", - deyə UNICEF-in Yeni Zelandiya ofisinin direktoru Vivyen Maydaborn söyləyib.

Qeyd edək ki, Ümumdünya Uşaqlar Günü münasibətilə dünyanın müxtəlif ölkələrindəki digər əlamətdar binalar da, məsələn, Brüsseldə Avropa Parlamenti, Çində Şanxay qülləsi, Yunanıstanda Afina Akropolu, İordaniyadakı Petra mavi işıqlara boyanıblar.

## SON BİR İLDƏ BİBLİYANIN DÜNYA DİLLƏRİNƏ TƏCÜMƏSİ 700-Ə ÇATIB

Beynəlxalq Tərcümə Təşkilatı bildirib ki, bu günə qədər dünyanın 700-ə yaxın dilində Bibliyanın tam tərcüməsi hazırlanıb, Əhdi-Cədid isə 1,5 mindən çox dilə tərcümə edilib. Bu barədə "Christiantoday" xəbər verib.

Dallas Universitetində (Texas, ABŞ) yerləşən "Uikliff Bibliya Tərcüməçiləri" (Wycliffe Bible Translators) beynəlxalq xeyriyyə təşkilatının məlumatında da deyilir ki, 2018-ci ildə 683 dilə tərcüməsi olan Bibliya 2019-cu ildə artıq dünyanın 698 dilinə çevrilib.

Müqəddəs Kitabın qismən tərcümələri isə daha geniş sahəni əhatə edir - belə ki, ötən il Əhdi-Cədid dünyanın 1534 dilində mövcud idisə, bu il ərzində bu rəqəm 1548-ə çatıb. "Uikliff Müqəddəs Tərcüməçiləri"nin hesabatında deyilir ki, təşkilat hazırda 161 ölkədə 2617 dildə Bibliyanın tərcümələri üzərində fəal işləyir və bu işin dörddə üçü birbaşa bu xeyriyyə təşkilatının və ya tərəfdaş SIL şirkətinin işçiləri tərəfindən yerinə yetirilir.

"Uikliff Bibliya Tərcüməçiləri" təşkilatının araşdırmalarına görə, işarə dilləri də daxil olmaqla, bu gün dünyada canlı dillərin sayı 7353-ə çatır. Bibliya hazırda ayrı-ayrılıqda tam və ya qismən 3384 dilə tərcümə olunsa da, dünyada 3969 dil var ki, hələ də Müqəddəs Kitabdan heç bir cümlə də tərcümə olunmayıb. Halbuki həmin dillərdə təxminən 252 milyon insan danışır. Deməli olar ki, 1,5 milyard insan üçün Bibliya doğma dilində əlçatmazdır. Bu isə hər beş insandan biri deməkdir. "Buna görə də "Uikliff Bibliya Tərcüməçiləri" Allahın Kəlamını bu dillərə tərcümə etmək üçün səylə və düşüncəli şəkildə işləməyə davam edirlər", - deyə Pul vurğulayıb.

## İNGİLTƏRƏ VƏ UELSDƏKİ MƏBƏDLƏRDƏ ELEKTRON ZİYARƏTÇİ SAYĞACLARI QURAŞDIRILIR

İngiltərə və Uels məbədlərinə gələnlərin etibarlı statistikasını aparmaq üçün elektron sayğacların quraşdırılması proqramı həyata keçirilir. Bu barədə "Christiantoday" məlumat verib.

Milli Kilsələr Fondunun (National Churches Trust, NCT) təşəbbüsü ilə həyata keçirilən yeni tədqiqat layihəsinin məqsədi İngiltərə və Uels ərazisindəki məbədlərə gələn həqiqi ziyarətçilərin sayını müəyyənləşdirməkdir. İlk mərhələdə hər bir prixod mənsubunu, turisti, habelə kilsə sərgiləri və konsertlərini ziyarət edənləri qeydə alacaq qırx rəqəmsal sayğac quraşdırılacaqdır.

NCT tədqiqatçılarının fikrincə, ölkədəki kafedrallar, muzeylər və tarixi məkanları ziyarətlə bağlı bəzi statistik məlumatlar olsa da, kilsələrdə bənzər genişmiqyaslı tədqiqatlar aparılmayıb.

Bənzər araşdırma proqramı ötən il Linkolnşir vəqfi tərəfindən həyata keçirilmişdi. 10 kilsədə quraşdırılmış rəqəmsal sayğaclar gözlənilməz nəticələr vermişdi.

"Bilirik ki, hər il milyonlarla insan prixod kilsələrinə gedir, lakin onlar haqqında məlumat tam deyil", - deyə proqram iştirakçılarından Kler Uolker bildirib. Onun sözlərinə görə, ziyarətçilərin sayının müəyyənləşdirilməsi ilə bağlı layihə kilsələrə bir sıra faydalar gətirəcəkdir. Ziyarətçi axını ilə bağlı dəqiq məlumatları olan məbədlər təmir üçün qrant almaq məqsədilə Milli İrs Lotereya Fonduna (National Heritage Lottery Fund) və digər sponsor təşkilatlara müraciət edə biləcəklər. Bu cür məlumatlar yerli hakimiyyət orqanları üçün və turizm məsləhətləri baxımından da əsaslandırma rolunu oynayacaqdır. Belə ki, yerli kilsə binalarına böyük maraq varsa, onun turistik potensialı dəyərləndiriləcəkdir.

Mövcud layihə iki il müddətinə hesablanmışdır, 2020-ci ildə aralıq hesabat, daha sonra 2021-ci ildə tam hesabat hazırlanacaqdır.

## VATİKAN BMT-Nİ YƏMƏNDƏ ATƏŞKƏS REJİMİNİ TƏTBİQ ETMƏYƏ ÇAĞIRIB

Vatikanın BMT-dəki nümayəndəsi, arxiyepiskop Bernardito Auza 2014-cü ildən bəri müharibənin davam etdiyi Yəməndə atəşkəs rejiminin tətbiqinə çağırıb. 5 ildir davam edən müharibə nəticəsində yoxsul, acınacaqlı vəziyyətdə yaşayan və aclıqdan əziyyət çəkən insanların sayı artmaqdadır, təmiz su ehtiyatı və ən zəruri şeylər çatışmır. Bu barədə "Catholicnewsagency" xəbər verib.

Müqəddəs Taxt-tacın BMT yanındakı müşaviri 2014-cü ildən bəri vətəndaş müharibəsi yaşayan Yəmən xalqının əzablarını yüngülləşdirmək üçün təcili surətdə atəşkəsə nail olmaq məqsədilə beynəlxalq ictimaiyyətin birgə səylərinə ehtiyac olduğunu söyləyib.

"Uşaqlar aclıqdan ölür, təmiz su ehtiyatı məhduddur, ölkə iqtisadiyyatı dağılmaq astanasında şiddətli mübarizəni davam etdirir; müharibə bölgələrini tərk edə bilməyən mülki vətəndaşlar qida və zəruri ehtiyaclarla təmin olunmadan qalırlar, humanitar işçilər bu bölgələrdə fəaliyyət göstərə bilmirlər", - deyə arxiyepiskop Auza vurğulayıb.

O bu bəyanatı BMT Təhlükəsizlik Şurasında "Yaxın Şərq və Fələstin məsələsi" ilə bağlı açıq müzakirə zamanı verib. Bildirib ki, atəşkəs Yəmən xalqının dözülməz əzablarına son qoyması baxımından vacibdir. Atəşkəsə dair çağırışların bu bölgəyə silah-sursat tədarükünün qarşısını almaq üçün konkret hərəkətlərlə dəstəklənməsini tələb etmək lazımdır.

Qeyd edək ki, Yəmən son illər baş verən ən ciddi qlobal humanitar böhranlardan biri ilə üz-üzə qalıb. Ölkədəki 29 milyona yaxın insandan 22 milyonu yaşamaq uğrunda mübarizə apararaq humanitar yardıma ciddi ehtiyac duyur. ABŞ-ın hesablamalarına görə, 2 milyondan çox insan evlərini tərk etmək məcburiyyətində qalıb, aclıq təhlükəsi ilə üzləşənlərin sayı artıq 14 milyona çatıb.

# BİLİRSİNİZMİ



**2 dekabr** - Köləliyin ləğv edilməsi uğrunda beynəlxalq mübarizə günüdür. Bu tarix Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının insan alverinə qarşı mübarizə haqqında konvensiyanı qəbul etməsi ilə bağlıdır. BMT-nin hesablamalarına görə, hazırda dünyada 40 milyona yaxın qadın, kişi və uşaq müasir köləliyin qurbanlarıdır. Bu isə köləliyin hələ də tamamilə aradan qaldırılmadığını göstərir. Məcburi əmək, cinsi istismar, hərbi əsirlik, ailədaxili köləlik, məcburi evlilik, (azyaşlı) qızların gəlin kimi satılması, dul qadınların miras kimi ötürülməsi, silahlı münaqişələrdə istifadə üçün uşaqların məcburi işə cəlb edilməsi, insan alveri və s. köləliyin müasir formalarıdır. Bu gün hökumət və ictimai təşkilatların, hüquq-mühafizə orqanlarının, digər strukturların səyləri təkcə belə halların aşkarlanmasına, qarşısının alınmasına və bu növ cinayətin təşkilatçılarının məsuliyyətə cəlb olunmasına deyil, həm də zərərçəkənlərin reabilitasiyasına yönəldilmişdir.

**3 dekabr** - Beynəlxalq Əlillər Günüdür. Bu barədə 1992-ci ildə BMT Baş Assambleyası tərəfindən qətnamə qəbul olunub. Onun hədəfi ictimai həyatın bütün sahələrində əlillərin hüquqlarının qorunması və geniş ictimaiyyətin diqqətini onların problemlərinə yönəltməkdir. Bu gün dünyada təxminən bir milyard əlil yaşayır və onlar cəmiyyətin həyatında tamhüquqlu üzv kimi iştirak etmək üçün fiziki, ictimai-iqtisadi və davranış məhdudiyyətləri ilə üzləşirlər.

**4 dekabr** – Pravoslav Kilsəsində Müqəddəs Məryəmin Qüds Məbədinə daxil olması günü kimi qeyd olunur. On iki əsas dini bayramdan biri sayılan bu günün əsasında valideynlərinin Müqəddəs Məryəmi üç yaşında Qüds məbədinə təntənəli şəkildə təqdim etdikləri barədə kilsə ənənəsi dayanır. Bu gün Xristianlığın hələ erkən çağlarında qeyd olunmağa başlanılmışdır. Pravoslavlarda isə IX əsrdən etibarən geniş yayılmışdır. Rəvayətə görə, Məryəmin valideynləri övladları olmadığı üçün Tanrıya dualar etmiş və övladları olacağı təqdirdə onu məbədin xidmətinə təqdim edəcəklərinə vəd vermişlər. Məryəmin 3 yaşı tamam olduqda valideynləri vədlərinə əməl etmişlər. Məbəddə yaxın qohumu Zəkəriyyə tərəfindən himayə edilən Məryəm təxminən 18 yaşına kimi burada qalaraq oruc tutmuş, ibadət etmiş, Müqəddəs Yazıları dərindən öyrənmişdir.

**5 dekabr** – Beynəlxalq Könüllülər Günüdür. BMT Baş Assambleyası 1985-ci ildə hökumətlərə hər il iqtisadi inkişaf naminə 5 dekabr tarixini Beynəlxalq Könüllülər Günü kimi qeyd etməyi təklif etmişdir. Könüllülər boş vaxtlarını cəmiyyətin rifahı üçün sərf edən insanlardır. Dünya Könüllüləri Bəyannaməsində deyilir ki, onlar qarşılıq gözləmədən öz istedadlarını, vaxtlarını, enerjilərini fərdi və kollektiv fəaliyyətlərə həsr etmək hüququna malikdirlər.

**7 dekabr** – Şəbi-Ərus (Mövlanəni Anma Mərasimləri). Mövləvilikdə "Xamdım, Bişdim, Yandım" deyərək həyatını üç sözlə xülasə edən Mövlanə Cəlaləddin Ruminin ölüm gecəsini xatırlamaq üçün Konyada təşkil edilən mərasimlərdir. Şəbi-Ərus "toy gecəsi" deməkdir. Çünki Mövlanə ölüm gününü Yaradana qovuşma günü saymış və ölümü insanın əslinə, ilahi mənbəyinə qayıtması kimi şərh etmişdir. Başqa sözlə, ölüm cismin yox olması deyil, Allaha doğru yol almasıdır. 2019-cu ildə Mövlanəni Anma Mərasimləri 7-17 dekabr tarixlərini əhatə edəcək.

**8 dekabr** – Katoliklər tərəfindən Məryəmin günahsız doğulması günü kimi qeyd olunur. Bakirə Məryəmə həsr olunmuş əsas bayramlardan biri sayılan bu gündə bütün katolik kilsələrində təntənəli mərasimlər keçirilir. Katolik inancına əsasən, Bakirə Məryəm başlanğıcdan – ana bətninə düşən andan ilk günahdan azad olmuşdur. Bütün digər insanlar isə günahı miras alaraq doğulurlar. Lakin göstərilən qeyri-adi lütf sayəsində Məryəm ilk günahdan qorunmuşdur. Ancaq bu ehkam pravoslavlıq, protestantlıq və digər bir sıra xristian cərəyanları tərəfindən qəbul olunmur.

**8 dekabr** – Hindistanda Mokşada Ekadaşi bayramı qeyd olunur. Sanskrit dilindən tərcümədə "mokşa" xilas olma, nicat tapma deməkdir. Qədim Vedalarda cəmiyyətin inkişafının dörd yolu təsvir olunur: dinin inkişafı (dharma), iqtisadiyyatın inkişafı (artha), məmnunluq hissinin inkişafı (kama) və azadlıq istəyinin inkişafı (mokşa). Maddi asılılıqdan xilas olma kimi başa düşülən mokşa müəyyən mənada maariflənmə və mənəvi kamillik ilə sinonim təşkil edir. Bu gün oruc tutmaq səmimi bir dindarı günahların bütün nəticələrindən təmizləyir və ona azadlıq verir. Mokşada Ekadaşi bayramında tanrı Damodaraya sitayiş olunur.

**10 dekabr** - Beynəlxalq İnsan Hüquqları Günüdür. Bu tarix 1948-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan sonra hər il bütün dünyada qeyd olunur. İnsan hüquqlarının qorunması BMT-nin təməl prinsiplərindən biridir və təşkilat təsis olunduğu gündən bu missiyanı davam etdirir.

**18 dekabr** – Beynəlxalq Ərəb Dili Günüdür. Ərəb dili 1973-cü ildə BMT-nin Baş Assambleyasında qurumun rəsmi dillərindən biri elan edilmişdir. 2010-cu ildə Beynəlxalq Ana Dili Günü ərəfəsində BMT-nin İctimaiyyətlə əlaqələr şöbəsi təşkilatın altı rəsmi dilinin hər biri üçün ayrıca gün təyin edilməsi təklifini irəli sürmüşdür. Hesab olunur ki, bu təşəbbüs mədəniyyətlərarası dialoqun güclənməsinə və çoxdilli dünyanın inkişafına xidmət edəcəkdir.

**19 dekabr** – Yoxsullara Beynəlxalq Yardım Günüdür. 1995-ci ildə BMT tərəfindən təsis edilmişdir. Hazırda yoxsulluq bəşəriyyətin əsas problemlərindən biri olaraq qalır. Dünyanın bir çox ölkəsində yoxsulluğun aradan qaldırılması üçün dövlət və beynəlxalq proqramlar həyata keçirilir. Eyni zamanda, sahibkarlar, müxtəlif dini və xeyriyyə ictimai təşkilatları tərəfindən yoxsullara yardım göstərilir. Bu günə qədər BMT tərəfindən yoxsulluğun kökünün kəsilməsi məqsədilə bir neçə proqram qəbul edilmişdir. İlk proqramın icrasına 2000-ci ilin əvvəlində başlanılsa da, hələ də yoxsulluq həddində yaşayanların sayı azalmamışdır.

**20 dekabr** – Beynəlxalq İnsan Həmrəyliyi Günüdür. BMT Baş Assambleyası 2005-ci il dekabrın 22-də Beynəlxalq İnsan Həmrəyliyi Gününün elan olunması haqqında qətnamə qəbul etmişdir. Qətnamə Minilliyin Bəyannaməsi əsasında hazırlanmışdır. Bəyannamədə deyilir ki, həmrəylik XXI əsrdə beynəlxalq münasibətlərin əsasını təşkil etməli olan fundamental və universal bəşəri dəyərlərdən biridir.

**20 dekabr** – Zərdüştlükdə Mitra bayramıdır. Mitra ədalətin himayədarı, Aşanın - həqiqətin hər şeyi görən gözüdür. O, Günəşlə, daha doğrusu, heç bir yalanın gizlənə bilmədiyi günəş şüaları ilə bağlıdır. Vəzifələrin yerinə yetirilməsinə, nizam-intizama riayət olunmasına, ahəngdarlığın və tarazlığın bərqərar olmasına nəzarət edir.

**22 dekabr** – Zərdüşt peyğəmbərin günüdür. Qış gün dönümündə, Günəş Oxatan bürcündən 30 dərəcə çıxdıqdan sonra Zərdüştlükdə bayram günü kimi qeyd olunur. Zərdüşt adətlərinə görə, həmin gecə çovdar unundan kökələr bişirilir və içərisinə fal mətnləri-qatlar yazılmış kağızlar yerləşdirilir. Zərdüştün şərəfinə ilahilər oxunur. Şagirdlərinin sayına görə 17 ocaq yandırılır.

**23 dekabr** – Yəhudilikdə Hanuka bayramıdır. İbrani təqviminin 3-cü ayı olan kislevin 25-ci günü başlayan və 8 gün davam edən bayrama "İşıq bayramı" da deyilir. E.ə. II əsrdə Yəhuda torpaqları Selevkilər İmperiyasının tərkibinə qatıldıqdan sonra IV Antiox qeyri-yunan əhalinin yunanlaşdırılması üçün sərt qaydalar tətbiq etməyə başladı. Lakin e.ə. 164-cü ildə Makkabinin qoşunları Antioxu məğlub etdilər. Rəvayətə görə, qələbədən sonra yəhudilər Məbəd dağına qalxdıqda burada yalnız bir günə çatacaq yağ lampaları tapdılar. Ancaq möcüzəvi şəkildə lampalar səkkiz gün ərzində yandı və bu müddət ərzində yeni yağ ehtiyatları hazırlandı. Beləliklə, Məbəd yenidən təqdis olundu. Bu hadisənin xatirəsinə hər il Hanuka bayramında şamlar yandırılır: bayramın ilk günündə 1, ikinci gün 2, üçüncü gün 3 şam yandırılır və bu say 8-ə qədər artırılır. Bir qayda olaraq bunun üçün xüsusi şamdandan - Hanukiyadan istifadə edilir.

**24 dekabr** – Katoliklikdə Milad bayramı ərəfəsinin qeyd olunduğu gündür. Ənənəyə əsasən, bayram göydə ilk ulduzun görünməsi ilə başlanır. Ailə bayramı sayılan həmin günün axşamı hətta kilsəyə getməyənlər də bütün ailə üzvləri ilə birgə masa ətrafına toplaşırlar. Nahar vaxtı ailə üzvləri hazırlanmış yeməklərdən yeyir, öz arzularını deyir, sevgi və əfvi simvolizə edən vaflini bölürlər. Milad masasında bir yer boş saxlanılır. Bu adət ailələri ilə birlikdə bayramı qeyd edə bilməyən yaxın və əziz insanların xatirəsinə işarədir.

**25 dekabr** – Milad bayramıdır. Hər il İsanın doğulması münasibətilə qeyd edilən və geniş mədəni ənənələri olan bayramdır. Milad bir çox ölkədə ümummilli bayram səviyyəsində qeyd olunur, həmçinin əksər qeyri-xristian xalqlar da bu bayramı qeyd edirlər. Azərbaycanlıların da istifadə etdiyi "milad" kəlməsi ərəb dilindən gəlir, mənası "doğulma" deməkdir. Xristianlar isə bayramı "Krismas" (Christmas) adlandırırlar. "Christmas" iki sözün "Christ" və "mass" sözlərinin birləşməsindən əmələ gəlməklə "İsanın messiyası" mənasını verir. Milad mərasimləri bayramdan 4 gün əvvəli (20-24 dekabr) və 6 gün sonranı əhatə edir. Bir sıra katolik ölkələrində uşaqlar mahnı oxuyaraq və xoş arzular söyləyərək evləri gəzirlər. Milad bayramının əsas elementi müxtəlif işıqlar, oyuncaqlar və s. ilə bəzədilmiş şam ağacıdır. Bu bayramda süfrənin müxtəlif yeməklərlə bəzədilməsi ənənəsi mövcuddur. Hər xalq süfrəsini özünəməxsus təamlarla doldurur. Məsələn, Almaniya və İngiltərədə qaz, yaxud hinduşkadan hazırlanmış yemək bayram süfrəsinin ayrılmaz hissəsidir.

**31 dekabr** – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bundan sonra elə həmin il bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikası Ali Sovetində qərar qəbul olundu.

## ŞAMAXIDAKI KİLSƏ QORUNAN ABİDƏLƏRİN SİYAHISINA SALINACAQ

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynov bildirib ki, son dövrdə qurum tərəfindən 1700-dək yeni abidə aşkarlanaraq qeydiyyata götürülüb: "Həmin abidələrdən biri də Şamaxının Mədrəsə kəndindəki kilsədir. Hazırda kilsə yeni aşkarlanmış abidə kimi qeydiyyata alınıb. Artıq sənədlər Azərbaycan Milli Elmlər Akademiyasına göndərilib və kilsəyə Alban abidəsi rəyi verilib. Tikili dövlət tərəfindən mühafizə olunan daşınmaz tarixi mədəniyyət abidələri siyahısına alındıqdan sonra bərpası aparılacaq".

## BU İL PAKİSTANDA 400 HİND MƏBƏDİ İSTİFADƏYƏ VERİLİB

Bu il Pakistan öz ərazisində olan 428 hind məbədinin 400-nü istifadəyə verib.

Pakistan mətbuatı bildirir ki, 1947-ci ildə Hindistanla Pakistan ayrıldıqdan sonra bu məbədlər bağlanmışdı.

İki ölkə arasında Kartapur dəhlizinin açılması isə hind zəvvarlara Pəncab əyalətindəki siqh məbədinə, Kəşmirdəki müqəddəs Şarda Pit məbədinə getmək imkanı verəcək.

Bildirilir ki, Pakistan hökuməti hər il 3-4 tarixi məbədi yenidən istifadəyə verməyi planlaşdırır. İlk növbədə Sialkotdakı minillik Şivaliya Teca Sinqx və Peşəvərdəki dünya tarixi irs obyekti olan Qorakxnatx tarixi məbədləri yenidən qurularaq istifadəyə veriləcək.

## BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜ MÜNASİBƏTİLƏ UNESKO BAŞ DİREKTORUNUN BƏYANATI YAYILIB

Ekstremizm və fanatizmin geniş yayıldığı, "nifrət zəhərinin" isə bəşəriyyətin böyük hissəsinin həyatını zəhərlədiyi bir vaxtda dözümlülük həyati əhəmiyyətli amildir. Bu fikri 16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə bəyanatında UNESKO-nun Baş direktoru Odri Azule ifadə edib.

Fransua-Mari Volterin 250 il əvvəl yazdığı "Dözümlülük traktatı" əsərinə müraciət edən Odri Azule bildirib ki, "dözümlülük zəkanın, baş verənləri dərk etməyin əlamətidir və həyati zərurət daşıyır". UNESKO-nun rəhbərinin sözlərinə görə, müasir tolerantlığın mahiyyəti mədəniyyətlərin rəngarəngliyini nifaq səbəbi kimi deyil, bəşəri sərvət kimi qəbul etməkdir. O xatırladıb: "Hər bir mədəniyyəti aşkar fərqlilik prizmasından yox, bəşəriyyətin ortaq dəyərləri kontekstində qəbul etmək insanlar arasında ümumi dil tapmaq deməkdir".

Odri Azule diqqətə çatdırıb ki, UNESCO dinc yanaşı yaşayış və mədəniyyətlərin qarşılıqlı mövcudluğu sahəsində fəaliyyətini ildən-ilə gücləndirir. Əlavə edib ki, təşkilat bütün fəaliyyəti ərzində irqçilik və qeyri ayrı-seçkiliyin bütün təzahürləri ilə mübarizə aparıb. Baş direktor bütün ölkələri tolerantlıq və humanizm ideyalarını yaymağa çağırıb.

Qeyd edək ki, Beynəlxalq Tolerantlıq Günü 1996-cı ildən qlobal səviyyədə qeyd olunur. Həmin il noyabrın 16-da BMT Baş Assambleyası üzv dövlətlərə dözümlülük konsepsiyasını yaymaq və təhsil müəssisələrində, habelə geniş ictimaiyyət arasında müvafiq tədbirlər keçirmək barədə çağırış edib.

## DAŞKƏNDDƏ İKİNCİ "NƏQŞİBƏNDİYYƏ TURİZM FESTİVALI"




Ümumdünya Sufi Mərkəzinin təşəbbüsü ilə Daşkənddə ikinci "Nəqşibəndiyyə turizm festivalı" keçirilib. Festivalda ABŞ, Çin, Malayziya, İndoneziya, Türkiyə, İngiltərə, Yeni Zelandiya, Hindistan, Avstraliya və digər ölkələrdən gələn Nəqşibəndiyyə sufi təriqətinin 250 ardıcılı iştirak edib.

Festivalın keçirilməsində məqsəd məşhur Şərq mütəfəkkirlərinin İslamın inkişafında və dünya sivilizasiyasındakı roluna lazımi qiymət verməkdir.

Festival çərçivəsində Daşkənd, Buxara, Səmərqənd və Termez şəhərlərinə ziyarət-turizm turları təşkil edilib. Sufi təriqətinin ardıcılları Seyid Məhəmməd Bəhauddin Nəqşibəndi, İmam Buxari, Hacı Əxrar, İmam Əbu Mənsur əl-Maturidi, Həzrət Əbdüxaliq Qijduvani, Xoca Mahmud Ənjir Fəqnavinin memorial komplekslərini, həmçinin Səmərqənddəki Şahi Zində kompleksini, Reqistan meydanını, Uluqbəyin rəsədxanasını və Termezdəki İmam Termezi kompleksini ziyarət ediblər.

Qeyd edək ki, Nəqşibəndiyyə sufi təriqəti Buxarada yaşayan görkəmli din xadimi Bəhauddin Nəqşibəndinin (1218-1389) adı ilə bağlıdır. Dünyada Nəqşibəndiyyə təriqətinin 40 milyondan çox ardıcılı var. Təkcə Malayziyada onların sayı 15 milyondan çoxdur.

## PARİSDƏ İSLAMOFOBİYA ƏLEYHİNƏ YÜRÜŞ KEÇİRİLİB

"Dini tənqidə hə, dindarlara nifrətə yox", "İslamofobiyaya stop", "Birgə yaşamaq üçün təcili hərəkət etmək lazımdır" kimi şüarlar Parisdə keçirilən islamofobiya əleyhinə yürüşdə səsləndirilib. İslamofobiya əleyhinə küçəyə çıxan insanlar paytaxtın Şimal Vağzalından (Gare du Nord) "Xalq" (Nation) meydanına doğru yürüş ediblər.

Oktyabr ayında Burqony-Franş-Komte (Bourgogne-Franche-Comte) regionunda regional Şuranın iclasında başıörtülü müsəlman qadınının iştirakına Milli Birlik partiyasının nümayəndəsinin münasibəti və Bayon məscidini yandırmaq cəhdinin qarşısını alan müsəlmanların yaralanmasından sonra müsəlmanlar əleyhinə aktların artması ilə bağlı məsələ yenidən gündəmə gəlib. Aparılan sosial sorğuların nəticələrinə əsasən, ölkədə hər 10 müsəlmandan təxminən 5-i diskriminasiyaya və rasist aktlara məruz qalıb.

Parisdə təşkilatçılar yürüşdə 40-50 min, "Occurence" sosial sorğu kabineti isə 13500 insanın iştirak etdiyini bildirib.

Qeyd edək ki, Fransada digər xalqlarla müqayisədə müsəlmanlara qarşı diskriminasiya və təzyiqlər daha çoxdur. İFOP sosial sorğu mərkəzinin apardığı sorğuya əsasən, Fransada yaşayan müsəlmanların 42 faizi dininə görə ən azı bir dəfə diskriminasiyaya uğrayıb. Son 5 ildə müsəlmanların 40 faizi rasist davranışlara məruz qalıblar ki, bu da əhalinin digər üzvləri ilə müqayisədə 2 dəfə çoxdur. Respondentlər 2014-cü ildən etibarən tez-tez (13 faiz), hərdənbir (22 faiz) və ən azı 1 dəfə (5 faiz) rasist davranışa məruz qaldıqlarını bildiriblər.

"Franceinfo" kanalının verdiyi məlumata əsasən, Daxili İşlər Nazirliyində ötən il islamofob aktlara və hədələrə dair 100 şikayət qeydə alınıb. 2015-ci ildə 429 şikayətin daxil olduğu bildirilib. Qeyd edilir ki, bu rəqəmlər reallığı əks etdirmir. Dövlət tərəfindən şikayət ərizələrinə heç bir reaksiya olmadığı üçün diskriminasiyaya məruz qalan insanlar bunun faydasız olduğunu düşünərək şikayət ərizəsi ilə müraciət etmirlər.

Fransa Müsəlmanları Şurası (CFCM) isə ötən il 50 təhqir və hədə məktubu alıb. Şura bildirib ki, 2018-ci ildə 600 islamofob aktı qeydə alınıb.

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**"Balakən şəhəri "Mərkəzi Cümə" məscidi" dini icması**
Qeydiyyat tarixi: 01 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 46

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Hizbullah Alıhacı oğlu, Məmmədov Şükür Qasım oğlu, Abdullayev Yəhya Məhəmməd oğlu, Bayramov Rəhim Alı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbrahimov İbrahim Cərulla oğlu, Əliyev Şamil Bəşir oğlu, Dibirov Şamil Amanullah oğlu, Əhmədov Məhəmməd Zahid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 31 oktyabr 2019-cu il

**"Abşeron rayonu Mehdiabad qəsəbə" dini icması**
Qeydiyyat tarixi: 11 dekabr 2002-ci il
Qeydiyyat №-si: 144

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Süleymanov İsmayıl Abuş oğlu, Qurbanov Nabatəli Oruc oğlu, Əliyev Məhəmməd Rəhim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Süleymanov Elmdar İsmayıl oğlu, Mehtiyev Ramiz Surxay oğlu, Almirzəyev Aydın Musa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Süleymanov İsmayıl Abuş oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Süleymanov Elmdar İsmayıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 31 oktyabr 2019-cu il

**"Bakı şəhəri "Alov" xristian" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119B – 894

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın hüquqi ünvanı "Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, R.Axundov küçəsi, ev 14, mənzil 39" kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Dini icmanın hüquqi ünvanı "Bakı şəhəri, Nəsimi rayonu, S.Rəhimov (əvvəlki Kamo) küçəsi, ev 197, mənzil 52" kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 25 noyabr 2019-cu il

### ELAN

"Astara rayonu Kijəbə qəsəbəsi Lovayın kənd məscidi" dini icması (100110A1 – 236 nömrəli, 24.02.2010-cu il tarixli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 noyabr 2019-cu il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

* * *

"Lerik rayonu Lerik qəsəbə məscidi" dini icmasının (Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 15 may 2008-ci ildə 1308Le1-486 nömrəli şəhadətnamə ilə qeydiyyatdan keçmişdir) təsisçilərinin 27 noyabr 2019-cu il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

* * *

17.06.2010-cu il tarixli, 100110A3-409 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Masallı rayonu Musaküçə kənd məscidi" dini icmasına məxsus şəhadətnamə, nizamnamə, Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarış itirildiyi üçün etibarsız sayılır.

# CƏMİYYƏT və DİN

№ 11 (340) / NOYABR 2019-cu il


## "RELİGİOUS TOURİSM DESTİNATİONS İN AZERBAİJAN" ADLI KİTAB İŞIQ ÜZÜ GÖRÜB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Bəhruz Orucovun ingilis dilində "Religious Tourism Destinations in Azerbaijan" (Azərbaycanda dini turizm destinasiyaları ) adlı kitabı nəşr olunub.

Kitabda qədim dövrlərdən indiyədək ölkəmizdə mövcud olan, Azərbaycanın mənəvi və mədəni irsinin gözəl incilərindən sayılan, müxtəlif dini konfessiyalara məxsus məbədlər haqqında müfəssəl məlumatlar öz əksini tapıb. Kitabın ilk səhifələrində müsəlman Şərqində ilk parlamentli dövlət olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və ölkədəki dini mənzərəyə qısa nəzər salınıb, kitabın təyinatı barədə məlumat verilib. Eramızın I əsrində, eləcə də yeni dövrdə inşa edilmiş, Azərbaycanın 8 bölgəsində yerləşən 51 dini ibadət ocağının ünvanları, onların tarixi, memarlıq xüsusiyyətləri, o cümlədən ölkəmizdə yaşayan dini və etnik qrupların adət-ənənələri, milli-dini dəyərləri barədə informasiyaların, ölkəmiz üçün əlamətdar sayılan hadisələr və məlumatların yer aldığı kitabda müqəddəs məkanların fotoşəkilləri də yerləşdirilib.

Dini turizm barəsində ilk olan bu nəşr daxili və xarici auditoriyada müvafiq sahə ilə maraqlanan, din və turizm sahəsində çalışan, oxuyan, bələdçilik edən, müstəqil fəaliyyət göstərən şəxslər, habelə ölkəmizin dini turizm potensialını öyrənmək istəyən geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Həmçinin nəşrdən ölkə daxilində dini tur və ziyarətlər zamanı faydalı məlumat kitabçası kimi də istifadə etmək mümkündür.

Qeyd edək ki, kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun maddi dəstəyi ilə çap olunub.

## MİNLƏRLƏ İNSAN HƏYATIN DƏYƏRİNİ ANLAMAQ ÜÇÜN TABUTUN İÇƏRİSİNƏ GİRİB

Cənubi Koreyada "canlı cənazə" adlı maraqlı terapiya keçirilir: minlərlə insan həyatın dəyərini anlamaq üçün tabutun içərisinə girir. "BBC" xəbər verir ki, yeddi il müddətində bu terapiyaya 25 min koreyalı qatılıb. Paytaxt Seulda keçirilən seanslarda yetkinlik yaşına çatmışlardan tutmuş ahıllara qədər hər yaş qrupundan olan insanlar iştirak edirlər. İştirakçılar bu xalqın cənazə geyimində 10 dəqiqə tabutun içərisində qalırlar. Onlar vəsiyyətlərini və matəm mərasimində götürüləcək fotoşəkillərini tabutların yanında qoyurlar.



Terapiya keçirən mərkəzin rəhbəri Yonq-mun bildirib ki, pulsuz keçirilən bu seanslar insanlara həyatın qədrini bilməyə, günahları üçün əfv diləməyə və ətrafdakı insanlarla daha mehriban olmağa kömək edir. "İnsanların incitdiyi yaxınlardan dərhal üzr istəməsi və həyatlarının qalan hissəsini onlarla mehriban keçirmələri baxımından bu təcrübə olduqca mühümdür", - deyə o əlavə edib.

Qeyd edək ki, dünyanın ən böyük 11 iqtisadiyyatından birinə malik olan Cənubi Koreyada son illər intiharların sayı iki dəfə artıb. Bunun əsas səbəbi kimi insanların stress vəziyyətində yaşaması göstərilir.

### Yadigar söz

**Həsən bəy Zərdabi**
*(Azərbaycanın görkəmli maarifçisi)*

***Yaxşı kitab çox qiymətli xəzinədir.***
***Nə qədər biz avamıq, bizi aldadacaqlar.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Dekabr - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:18 | 07:44 | 12:29 | 15:34 | 17:31 | 18:35 |
| 2 | 06:19 | 07:45 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 3 | 06:19 | 07:46 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 4 | 06:20 | 07:47 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 5 | 06:21 | 07:48 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 6 | 06:22 | 07:49 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 7 | 0623 | 07:49 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 8 | 06:24 | 07:50 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 9 | 06:24 | 07:51 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 10 | 06:25 | 07:52 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 11 | 06:26 | 07:53 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 12 | 06:27 | 07:54 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 13 | 06:27 | 07:55 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 14 | 06:28 | 07:55 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 15 | 06:29 | 07:56 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 16 | 06:29 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 17 | 06:30 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 18 | 06:31 | 07:58 | 12:37 | 15:35 | 17:32 | 18:38 |
| 19 | 06:31 | 07:59 | 12:37 | 15:36 | 17:32 | 18:38 |
| 20 | 06:32 | 07:59 | 12:38 | 15:36 | 17:33 | 18:38 |
| 21 | 06:32 | 08:00 | 12:38 | 15:36 | 17:33 | 18:39 |
| 22 | 06:33 | 08:00 | 12:39 | 15:37 | 17:34 | 18:39 |
| 23 | 06:33 | 08:01 | 12:39 | 15:37 | 17:34 | 18:40 |
| 24 | 06:34 | 08:01 | 12:40 | 15:38 | 17:35 | 18:40 |
| 25 | 06:34 | 08:02 | 12:40 | 15:39 | 17:35 | 18:41 |
| 26 | 06:35 | 08:02 | 12:41 | 15:39 | 17:36 | 18:42 |
| 27 | 06:35 | 08:02 | 12:41 | 15:40 | 17:36 | 18:42 |
| 28 | 06:35 | 08:03 | 12:42 | 15:41 | 17:37 | 18:43 |
| 29 | 06:36 | 08:03 | 12:42 | 15:41 | 17:38 | 18:44 |
| 30 | 06:36 | 08:03 | 12:43 | 15:42 | 17:39 | 18:44 |
| 31 | 06:36 | 08:03 | 12:43 | 15:43 | 17:39 | 18:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## DOQQUZ YAŞLI UNİVERSİTET MƏZUNU

Laurent Simons adlı vunderkind 9 yaşında elektrotexnik ixtisası üzrə universitet məzunu olmağa hazırlaşır. Laurent maraqlı göstəriciləri ilə diqqəti cəlb edir. Belə ki, o, 6 yaşında ibtidai sinifi, 8 yaşında isə tam orta məktəbi bitirərək 2018-ci ilin yayında Eyndhoven Texniki Universitetinin tələbəsi adına layiq görülüb.

Almaniyanın www.bild.de saytı xəbər verir ki, Laurent öz yaşına görə təhsil istiqaməti üzrə rekordları təzələyib və onun İQ (intellekt səviyyəsi) göstəricisi minimum 145 rəqəmi ilə qiymətləndirilib. Hətta onun İQ göstəriciləri 76 rəqəmi ilə qiymətləndirilən astrofizik Stefan Havkin və Nobel mükafatçısı Albert Eynşteynlə müqayisə edilir. Laurentin elmi rəhbəri, professor Peter Baltus bildirir ki, universitetin ondan gözləntiləri çox yüksəkdir.

Laurent hazırda beyin hüceyrələrinin reaksiyasının ölçülməsi məqsədilə hazırlanan mikroçip üzərində çalışır və bu sahədə araşdırmasını davam etdirmək istəyir. O deyir: "Mən elə bir şey yaratmaq istəyirəm ki, insanın ömrünü uzada bilsin". Bu hər hansısa süni orqan da ola bilər. Laurent doktorluq elmi dərəcəsini əldə etməyi planlaşdırır və hazırda onun üçün doktorantura proqramı müəyyənləşdirilir. Onun bundan sonrakı araşdırmalarını ABŞ və ya Almaniyada davam etdirməsi gözlənilir.

## AVSTRİYADA ƏN SƏRT SİQARET QADAĞASI QÜVVƏYƏ MİNİB

Noyabrın 1-dən etibarən Avstriyada qastronomiya obyektlərində tütün məhsullarının istehlakını qadağan edən qanun qüvvəyə minib.

Uzun müzakirələrdən sonra qəbul edilən və 2018-ci ildə icrası parlament tərəfindən dayandırılan qanunun, nəhayət, tam tətbiqinə başlanılıb. Bir sıra ictimai iaşə obyektlərinin sahibləri qanuna qarşı son anadək mübarizə apararaq, müəyyən istisnalar əldə etməyə və ya qanundakı hansısa boşluqlardan biznes maraqları üçün yararlanmağa çalışsalar da, heç bir nəticə hasil olmayıb. Ekspertlərin rəyinə görə, bu, Avropa ölkələri arasında siqaretdən istifadəyə qarşı ən sərt qanundur. Hətta Avropada siqaret qadağasını ilk tətbiq edən İrlandiyada da bu qanun yumşaq şəkildə icra olunur. Bu ölkədə ictimaiyyətin girişinə icazə verilməyən qapalı tədbirlərdə siqaretdən istifadə mümkündür. Avstriyada isə heç bir bəhanə ilə - qapalı tədbir, toplantı və s. adı altında siqaret çəkmək mümkün deyil.

Qanunvericiliyə əsasən, obyektlərində tütün məmulatlarından istifadəyə görə qastronomlara ilkin olaraq 800 avro cəza veriləcək. Belə hal təkrar edildikdə cərimənin məbləği 10 min avroyadək yüksələ bilər.


**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, **Vasim MƏMMƏDƏLİYEV,** Raman DADAŞOV (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894